HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 28 (668) ■ 24 iyul 2013 www.vergiler.az Qiyməti: 40 qəp.

# Azərbaycan iqtisadiyyatı yüksək templə artır

*İyulun 18-də Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2013-cü ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.*



Tədbirdə giriş nitqi ilə çıxış edən dövlətimizin başçısı cari ilin birinci yarısının iqtisadi göstəricilərinin müsbət olduğunu, ölkəmizin dinamik inkişaf etdiyini, qarşıda duran bütün vəzifələrin icra olunduğunu bildirmişdir. Qeyd edilmişdir ki, bu dövrdə ümumi daxili məhsul 5%, qeyri-neft sektoru 11% artmışdır. Prezident İlham Əliyev bildirmişdir ki, ölkə iqtisadiyyatı çoxşaxəli şəkildə inkişaf edir və bu gün icra edilən və icrasını gözləyən layihələr növbəti illərdə güclü qeyri-neft sektorumuzun yaranmasına gətirib çıxaracaqdır: «Əlbəttə ki, 11% səviyyəsində artan qeyri-neft iqtisadiyyatımız bütün işlərə çox gözəl təkan verir. Əlbəttə ki, iqtisadiyyatımızın əsas sahəsi neft sektorudur. Ancaq son müddət ərzində ümumi daxili məhsulun əsas hissəsi qeyri-neft sektorunda formalaşır ki, bu da aparılan islahatların məntiqi nəticəsidir». Kənd təsərrüfatı və digər sahələrdə inkişafdan danışan dövlətimizin başçısı ötən altı ayda investisiya qoyuluşunun da yüksəlməsini iqtisadi uğurların nəticəsi kimi qiymətləndirmişdir: «İlin birinci yarısında ölkə iqtisadiyyatına 12,6 milyard dollar sərmayə qoyulmuşdur. Bunun böyük hissəsi daxili sərmayədir, təqribən yeddi milyard. Beş milyard isə xarici sərmayələrdir. Bu da çox vacib məsələdir. Çünki uzun illərdir Azərbaycan xarici investorlar üçün cəlbedici ölkə kimi qalır, bax, altı ayda qoyulan bu 5 milyard xarici sərmayə bunu bir daha təsdiqləyir. Hər bir ölkə üçün xarici investisiyalar önəmli rol oynayır. Baxmayaraq ki, özümüzün də indi kifayət qədər böyük maddi imkanlarımız var, yenə də xarici investorların Azərbaycana olan inamı və xarici investisiyaların qoyuluşu ölkənin ümumi inkişafını əks etdirir. Əgər biz bu tempi saxlaya bilsək, ilin sonuna qədər sərmayələrin səviyyəsi təqribən 25 milyard dollara çatacaqdır. İlin əvvəlində mən qarşıya vəzifə qoymuşdum ki, bu il Azərbaycana qoyulacaq sərmayə keçən ildən az olmamalıdır. Keçən il 20 milyard dollardan çox vəsait qoyulmuşdur. Ancaq biz artıq görürük ki, keçən ildən daha da çox sərmayə qoyulacaqdır».

Azərbaycan Prezidenti onu da bildirmişdir ki, ölkəyə qoyulan investisiyalar iqtisadiyyatın inkişafına təkan verir, yeni iş yerlərinin açılmasına şərait yaradır, respublikanın iqtisadi qüdrətini artırır: «Son bir neçə il ərzində dünyanı, xüsusilə Avropanı bürümüş iqtisadi və maliyyə böhranı şəraitində xarici iqtisadiyyatlara qoyulan vəsait onu göstərir ki, biz doğrudan da böyük imkanlara malikik. Biz özümüzü çox rahat hiss edirik. Əlbəttə ki, bizim iqtisadi imkanlarımız və siyasi addımlarımız bir-biri ilə bağlıdır və biz gələcəkdə xarici bazarlara nə qədər çox investisiya qoysaq, bölgədə və dünyada siyasi çəkimiz də o qədər artacaqdır. Bu, təbiidir və biz bu yolla gedirik. Deyə bilərəm ki, dünyanın ancaq inkişaf etmiş ölkələri başqa ölkələrin iqtisadiyyatlarına böyük həcmdə sərmayə qoyurlar. Azərbaycan inkişafda olan bir ölkədir. Vaxt gələcək biz də inkişaf etmiş ölkələrin bütün meyarlarına cavab verəcəyik».

Dövlət başçısı qeyd etmişdir ki, valyuta ehtiyatlarımız 48 milyard dollardan çoxdur, ölkəmiz bu göstərici üzrə dünya miqyasında qabaqcıl yerlərdən birini tutur. Eyni zamanda, Azərbaycanda manatın məzənnəsi sabit qalmış, əhalinin pul gəlirləri 7%-dən çox artmış, inflyasiya isə cəmi 2% olmuşdur.

Sosial siyasətin mühüm nəticələrindən bəhs edən Prezident İlham Əliyev ötən altı ayda maaşların artdığını, orta aylıq əməkhaqqının 520 dollar, orta pensiya məbləğinin 200 dollar səviyyəsində olduğunu diqqətə çatdırmışdır. Qeyd olunmuşdur ki, sosial sahədə islahatlar davam etdiriləcək və insanların vəziyyəti daha da yaxşılaşacaqdır: «Bu rübdə vətəndaşların pensiyaları da, əməkhaqları da artırılacaqdır. Gələn illərdə də eyni siyasət aparılacaqdır. Bir daha demək istəyirəm ki, iqtisadi islahatlar çox güclü sosial siyasətlə dəstəklənməlidir. Hesab edirəm ki, ölkəmizin bu sahədə əldə etdiyi uğurlar nümunə ola bilər». Regionların inkişaf proqramında nəzərdə tutulan tədbirlərin səmərəli nəticələr verdiyini bildirən dövlətimizin başçısı bütün bölgələrdə, rayonlarda çox ciddi inkişaf getdiyini, canlanma, yüksək əhval-ruhiyyə hiss olunduğunu vurğulamışdır.

Ölkəmizdə işsizliyin səviyyəsinin azaldılması ilə bağlı sistemli tədbirlərin görüldüyünü qeyd edən Prezident İlham Əliyev işsizliyin, demək olar ki, aradan qaldırıldığını bildirmişdir: «Bütövlükdə bu ilin əvvəlində işsizliyin səviyyəsi beş faizdən bir qədər çox idi. Hesab edirəm ki, ilin sonuna qədər bu rəqəm daha da azalacaqdır. Amma o da həqiqətdir ki, 5% səviyyəsində işsizlik istənilən ölkə üçün arzu olunan rəqəmdir. Bəzi inkişaf etmiş ölkələrdə bu rəqəm 10%, 15%, 25% səviyyəsinə qalxır. Əlbəttə ki, bu, çox ciddi sosial problemlərə gətirib çıxarır. İşsizliyin aradan qaldırılması 10 il bundan əvvəl qarşıya qoyulmuş ən əsas vəzifələrdən biri idi. On il ərzində 1 milyon 180 min yeni iş yeri açılmışdır. Bu ilin altı ayında 55 min iş yeri yaradılmışdır. Onlardan 45 mini daimi iş yeridir. Yəni bu proses davam edir və bu da təbiidir. Çünki bizim iqtisadi siyasətlə bağlı təşəbbüslərimiz, o cümlədən Azərbaycanda aparılan sənayeləşmə siyasəti, əlbəttə ki, yeni iş yerlərinin açılmasına gətirib çıxarır».

Azərbaycan Prezidenti ölkəmizin beynəlxalq nüfuzunun artdığını, ölkəmizin dünya miqyaslı tədbirlərə ev sahibliyi etdiyini, beynəlxalq iqtisai layihələrin həyata keçirilməsində təşəbbüskar səylərinin reallaşdırıldığını və digər məsələləri də vurğulamışdır: «Dünyada ən dinamik inkişaf edən ölkə Azərbaycandır. Bu, reallıqdır və bu reallığı artıq bölgə ilə məşğul olan bütün qurumlar qəbul edir. Ancaq eyni zamanda, ölkəmizin beynəlxalq nüfuzu da böyük əhəmiyyətə malikdir. Biz bu nüfuzu qazanmışıq və bu nüfuzun nə qədər yüksək səviyyədə olmasının göstəricisi bizim hazırda BMT Təhlükəsizlik Şurasında üzvlüyümüzdür. Bu, dünya tərəfindən Azərbaycana verilən qiymətdir. Eyni zamanda, Azərbaycanda keçirilən yüksək səviyyəli, mötəbər beynəlxalq tədbirlər bizim beynəlxalq nüfuzumuzu daha da artırır».

Tədbirdə maliyyə naziri Samir Şərifov, kənd təsərrüfatı naziri İsmət Abasov, nəqliyyat naziri Ziya Məmmədov çıxış edərək rəhbərlik etdikləri sahələrdə inkişaf göstəriciləri, davam etdirilən layihələr barədə məlumat vermişdir.

Müşavirəyə yekun vuran Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizdə makroiqtisadi və maliyyə sabitliyinin gücləndiyini, investisiya və infrastruktur layihələrinin icrasının davam etdiriləcəyini, sosial proqramların icrası sayəsində insanların maddi rifah halının daha da yaxşılaşacağını diqqətə çatdırmışdır. İlin sonuna kimi ölkəmizin inkişaf tempinin daha da sürətlənəcəyini, maliyyə və büdcə ehtiyatlarının artacağını bildirmişdir: «Bu rübdə gələn ilin büdcəsi artıq hazırlanacaqdır. İndidən büdcə üzərində işlər aparılır. Büdcə, əlbəttə ki, həm investisiya, həm sosial yönümlü olmalıdır. Büdcədə müdafiə xərcləri önəmli yer tutmalıdır, eyni zamanda, bütün infrastruktur layihələri, sosial layihələr, sosial ödəmələr nəzərə alınacaqdır».

# Prezident İlham Əliyev: «Azərbaycanda söz azadlığı tam şəkildə təmin edilib»

*İyulun 22-də Azərbaycan Prezidenti İlham Əliyev jurnalistlər üçün tikilmiş binada Milli Mətbuat Günü münasibətilə mənzillərin paylanması mərasimində iştirak etmişdir.*

Əvvəlcə dövlətimizin başçısı binanın texniki-iqtisadi göstəricilərini əks etdirən stendə baxmışdır. Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov dövlətimizin başçısına məlumat vermişdir ki, ümumi yaşayış sahəsi 17 min 600 kvadratmetr olan 2 blok və 17 mərtəbədən ibarət bina qısa müddətə və yüksək keyfiyyətlə inşa olunmuşdur. Bildirilmişdir ki, ümumi sahəsi 22 min kvadratmetrə yaxın olan binanın həyətində geniş abadlıq-quruculuq işləri görülmüş, həyətdə uşaq meydançası quraşdırılmış, müxtəlif attraksionlar qoyulmuşdur. Binanın 354 nömrəli elektron ATS-i, iki su anbarı vardır.

Sonra Prezident İlham Əliyev kütləvi informasiya vasitələrinin nümayəndələri ilə görüşmüş, mənzillərin paylanması ilə bağlı təntənəli mərasimdə geniş nitq söyləmişdir. Mənzil alan jurnalistləri səmimi təbrik edən dövlətimizin başçısı demişdir ki, kütləvi informasiya vasitələrinin əməkdaşları üçün dövlət hesabına mənzillərin tikilməsi dünya təcrübəsində ilk dəfə olaraq məhz Azərbaycanda gerçəkləşir: «Şadam ki, Azərbaycan bu sahədə də öz liderliyini göstərir. Çünki bildiyiniz kimi, jurnalistlərin peşəsi çox ağırdır, məsuliyyətlidir. Ancaq jurnalistlərin əksəriyyəti aldıqları maaşla bu cür evdə mənzil ala bilməzdi. Bu məqsədlə və eyni zamanda, öz sahəsində peşəkarlıq göstərmiş, uzun illər mətbuatda çalışmış jurnalistləri mükafatlandırmaq üçün hesab edirəm ki, bu təşəbbüs ən məqbul yol idi. Mətbuat işçiləri ilə görüşlərimin birində jurnalistlər tərəfindən irəli sürülmüş bu təşəbbüsə dərhal dəstək verildi və qısa müddət ərzində belə gözəl, yaraşıqlı bina tikilmişdir. Əminəm ki, bu binanın ətrafında gələcəkdə böyük bir kompleks yaranacaqdır».

Mənzillərin paylanması zamanı hansısa ayrı-seçkiliyə yol verilmədiyini deyən Prezident İlham Əliyev jurnalist peşəkarlığının cəmiyyətdə sağlam mühitinin formalaşmasında mühüm rol oynadığını xüsusi vurğulamışdır. Dövlətimizin başçısı Azərbaycanda söz və mətbuat azadlığının tam şəkildə təmin olunduğunu, jurnalistlərin öz iradələrini sərbəst ifadə etmələri üçün demokratik mühitin mövcudluğunu da xüsusi diqqətə çatdırmışdır: «Azərbaycanda söz azadlığı tam şəkildə təmin edilibdir. Bildiyiniz kimi, ulu öndər Heydər Əliyev tərəfindən senzuranı ləğv etməklə bağlı irəli sürülmüş təşəbbüs azad mətbuata təkan verdi. Çünki senzura olan bir ölkədə azad mətbuatdan söhbət gedə bilməzdi. Hesab edirəm ki, məhz o gündən başlayaraq Azərbaycanda azad mətbuatın tam formalaşması başlamışdır və bu gün Azərbaycanda söz azadlığı tam şəkildə təmin edilir. Yüzlərlə mətbu orqan sərbəst fəaliyyət göstərir, əlbəttə ki, senzuradan söhbət gedə bilməz. Azərbaycan, eyni zamanda, müasir texnologiyaların tətbiqində də öz sözünü deyir. Bildiyiniz kimi, bu gün internet jurnalistikası da çox sürətlə inkişaf edir, o cümlədən Azərbaycanda. Azərbaycanda internet tam azaddır».



**Davamı 2-ci səhifədə**


2 Mətbuatın inkişafı dövlətin diqqət mərkəzindədir

3 Qeyri-neft sektorunda ixrac idxalı üstələyir

4 Nağdsız ödəniş sisteminin inkişaf istiqamətləri

5 Azərbaycanda yoxsulluğun səviyyəsi yüksək templə azalır

# Prezident İlham Əliyev: *«Azərbaycanda söz azadlığı tam şəkildə təmin edilib»*

**Əvvəli 1-ci səhifədə**

Dövlətimizin başçısı azad jurnalistikanın cəmiyyətin inkişafında və demokratik dəyərlərin bərqərar olmasında müstəsna rolunu yüksək dəyərləndirmiş, söz və mətbuat azadlıqlarının daha da dərinləşməsi üçün bundan sonra bütün zəruri tədbirlərin həyata keçiriləcəyini demişdir: «Əminəm ki, gələcəkdə də Azərbaycanda söz azadlığı və bütün başqa azadlıqlar təmin ediləcəkdir. Azərbaycanda demokratiyanın inkişafında böyük addımlar atılır, bütün azadlıqlar vardır - söz azadlığı, sərbəst toplaşmaq azadlığı. Bax bu yaxınlarda icazəli mitinqlərin keçirilməsi üçün yer nəzərdə tutulubdur və gələcəkdə jurnalistlərin bu mitinqləri işıqlandırması üçün böyük problem olmaz, balkondan müşahidə etmək olar.

Azərbaycanda bütün digər azadlıqlar - vicdan azadlığı, din azadlığı tam təmin edilibdir. Beynəlxalq təşkilatlar Azərbaycanda bu sahədəki işlərə yüksək qiymət verirlər. Yəni, müasir dövlət prinsipləri elə olmalıdır ki, biz hər bir sahədə qabağa gedək, ən mütərəqqi təcrübəni Azərbaycanda tətbiq edək və ölkəmizi inkişaf etdirək».

Prezident İlham Əliyev ölkədə sağlam mətbuatın inkişafı baxımından jurnalist məsuliyyətinin də vacibliyini qeyd etmiş, milli-mənəvi dəyərlərin qorunduğunu diqqətə çatdırmışdır: «Mən şadam ki, son illər ərzində bu istiqamətdə də müsbətə doğru irəliləyiş vardır, jurnalistlər öz məsuliyyətini daha da dolğun şəkildə dərk edirlər, mətbuatda gedən, həqiqəti əks etdirməyən təhqiramiz yazılara da az-az rast gəlmək olur. Bu da jurnalistlərin məsuliyyətindən xəbər verən amillərdir. Eyni zamanda, müasir cəmiyyətdə, internet dövründə hər hansı bir yalan məlumatın ömrü uzun ola bilməz. Ona görə, jurnalistlərin məsuliyyəti hesab edirəm ki, gələcəkdə də daim diqqət mərkəzində olmalıdır. Bilirəm ki, jurnalist ictimaiyyəti, Mətbuat Şurası bu məsələləri daim diqqət mərkəzində saxlayır. Necə ki, hər bir insan qanun qarşısında, cəmiyyət qarşısında məsuliyyət daşıyır, əlbəttə, jurnalistlər də bu məsuliyyəti daşımalıdırlar və eyni zamanda, onların məsuliyyəti bəlkə də daha da böyük olmalıdır».

Tədbirdə çıxış edən Mətbuat Şurasının sədri Əflatun Amaşov, Azərbaycan Dövlət Teleqraf Agentliyinin bölmə müdiri Bətul Ayvazlı, I525-ci qəzet»in baş redaktoru Rəşad Məcid KİV-in inkişafına, jurnalistlərin sosial-məişət problemlərinin həllinə göstərdiyi dəstəyə görə dövlət başçısına minnətdarlığını bildirmişlər.

Sonra Prezident İlham Əliyev jurnalistlər üçün inşa ediləcək növbəti binanın təməlqoyma mərasimində iştirak etmişdir. Bu bina 17 mərtəbəli və 3 bloklu olacaqdır. Burada 1, 2, 3 və 4 otaqlı mənzillər istifadəyə veriləcəkdir. Bina bütün zəruri infrastrukturla təmin ediləcəkdir.

# Vergilər naziri Şəkidə vətəndaşları qəbul etmişdir

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edərək, onların qaldırdıqları problemlərin həllinə kömək göstərirlər.*



Növbəti belə qəbul Şəki şəhərində vergilər naziri Fazil Məmmədov tərəfindən keçirilmişdir. Şəki, Mingəçevir şəhərləri, Zaqatala, Balakən və Qax rayonlarından olan 70 nəfərədək vətəndaş vergi inzibatçılığı, vergi borcları, POS-terminalların quraşdırılması, sahibkarlığın inkişafına ciddi təkan verən güzəştli kreditlərin həcminin artırılması, təhsil sahəsində əlavə dəyər vergisinin ləğvinə baxmayaraq, bunun təhsil haqlarında əksini tapmaması və onları narahat edən digər məsələlərlə bağlı vergilər nazirinə müraciət etmişlər.

Bundan başqa, bir neçə vətəndaş müəllimlərin əməkhaqlarının artırılması və onlardan tutulan gəlir vergisinin məbləğinə yenidən baxılmasını xahiş etmişdir. Öz növbəsində, vergilər naziri Fazil Məmmədov həmin məsələnin əvvəlki görüşlərdə də qaldırıldığını diqqətə çatdırmış və artıq bu haqda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə məruzə etdiyini bildirmişdir. Nazir dövlət başçısının bununla əlaqədar müvafiq tapşırıqlar verdiyini qeyd etmişdir.

Qaldırılan problemlərin əksəriyyəti yerindəcə həll olunmuş, digər məsələlərin araşdırılması və müvafiq tədbirlər görülməsi barədə tapşırıqlar verilmişdir. Qəbula gələn vətəndaşlar onlar üçün yaradılmış bu imkandan razı qaldırdıqlarını bildirmişlər.

*Azərbaycan milli mətbuatının yaranmasının 138-ci ildönümü tamam oldu. Mətbuatımız zəngin tarixi irs və təməl üzərində bu gün də dinamik inkişaf edir, cəmiyyət qarşısındakı sosial məsuliyyətini unutmur, dövlətçilik ənənələrinə, milli-mənəvi dəyərlərə sadiqlik nümayiş etdirir. Əlamətdar peşə bayramı münasibətilə həmkarlarımızı təbrik edir, onlara yeni-yeni yaradıcılıq uğurları arzulayırıq!*

# Mətbuatın inkişafı dövlətin diqqət mərkəzindədir

*Əsası 1875-ci il iyulun 22-də böyük ziyalı, ictimai xadim və ədib Həsən bəy Zərdabi tərəfindən qoyulan Azərbaycan milli mətbuatı cəmiyyətin inkişaf xüsusiyyətlərinə uyğun olaraq mürəkkəb təkamül yolu keçmiş və müasir səviyyəyə çatmışdır. Azərbaycan və eləcə də bütün Şərq aləmi üçün tamamilə yeni siyasi, mədəni və elmi ünsiyyət vasitəsi olan mətbuatın yaranması, əslində, ölkədə gedən mühüm ictimai-siyasi, iqtisadi və mədəni proseslərlə, o cümlədən maarifçilik hərəkatının, dünyəvi teatrın və yeni tipli məktəbin təşəkkül tapması ilə sıx şəkildə bağlıdır.*

Azərbaycan ötən əsrin sonlarında dövlət müstəqilliyini bərpa etdikdən sonra, həyatın bir çox sahələrində olduğu kimi, mətbuatın inkişafında da dönüş yaranmış, siyasi plüralizm və söz azadlığını təmin etmək üçün mühüm işlər həyata keçirilmişdir. Hələ Azərbaycan Xalq Cümhuriyyəti illərindən sonra rüşeym halında inkişafını dayandırmış proseslər yenidən dirçələrək demokratik mətbuatın inkişafına xidmət etmişdir. Azərbaycan mətbuatının sürətli inkişafı isə respublikamızda dünya standartlarına cavab verən müstəqil kütləvi informasiya vasitələrinin yaranmasına gətirib çıxarmışdır. Hazırda hüquqi, demokratik dövlət və vətəndaş cəmiyyəti qurmaq istiqamətində irəliləyən Azərbaycanda 4500-ə yaxın müxtəlif kütləvi informasiya vasitəsi - qəzet, jurnal, informasiya agentliyi və teleradio şirkətləri qeydiyyata alınmışdır.

Müstəqil Azərbaycan söz, fikir və mətbuat azadlığının maksimum səviyyədə təminatı baxımından MDB məkanında ən qabaqcıl yerlərdən birini tutur. Respublikada bu yönümdə həyata keçirilən mütərəqqi islahatlar, ilk növbəbə, demokratik, hüquqi və dünyəvi inkişaf yolunu prioritet seçərək bu yolla inamla irəliləyən Azərbaycanda kütləvi informasiya vasitələrinin fəaliyyətinə verilən yüksək qiymətin ifadəsi sayılmalıdır. Respublikada insan hüquqlarının, siyasi plüralizmin, vətəndaş cəmiyyətinin mövcudluğu öz təsdiqini həm də demokratik institut kimi formalaşmış kütləvi informasiya vasitələrinin müstəqil fəaliyyətində, onların inkişafı üçün yaradılmış hüquqi təminatlarda tapır.

Respublikamızın ictimai-siyasi, sosial-iqtisadi həyatında demokratik dəyərlərin daha geniş şəkildə bərqərar olması, müstəqil dövlətçiliyin siyasi, iqtisadi və hüquqi dayaqlarının möhkəmlənməsi prosesi sürətləndikcə, Azərbaycan iqtidarı da söz və mətbuat azadlıqlarının qanunvericilik bazasının demokratikləşdirilməsi istiqamətində yeni-yeni addımlar atır. Son 8 ildə ulu öndər Heydər Əliyev siyasi kursunu inamla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev söz və mətbuat azadlıqlarının inkişafını respublikanın demokratikləşməsi prosesinin vacib amili kimi dəyərləndirir.

Dövlət başçısı respublikada mətbu nəşrlərin sərbəst fəaliyyətinə, jurnalistlərin öz iradələrini azad şəkildə ifadə etməsinə bütün imkanların yaradılmasının tərəfdarıdır. Hələ 2005-ci il 21 iyul tarixində «Azərbaycan mətbuat işçilərinin təltif edilməsi haqqında», «Azərbaycan mətbuat işçilərinə fəxri adların verilməsi haqqında», habelə «Kütləvi informasiya vasitələrinə maliyyə yardımı göstərilməsi haqqında» sərəncamların imzalanması jurnalistlərin əməyinə yüksək qiymət verildiyini göstərmişdir. «Əkinçi» qəzetinin 130 illik yubileyinin respublikanın bütün bölgələrində yüksək səviyyədə qeyd olunması, jurnalistlərin fəxri adlarla mükafatlandırılması, bir neçə peşəkar jurnalistin prezident təqaüdünə layiq görülməsi dövlətin mətbuata qayğısının bariz təcəssümü kimi xatırlanır.

Mətbuatın maddi-texniki və maliyyə bazasının möhkəmləndirilməsi məqsədilə 2006-cı il fevralın 8-də imzalanmış «Qəzetlərin «Azərbaycan» nəşriyyatına olan borclarının ödənilməsi barədə» sərəncama əsasən, qəzetlərin «Azərbaycan» nəşriyyatına olan 450 min ABŞ dolları məbləğində borcu dövlət büdcəsindən ödənilmişdir.

Prezident İlham Əliyevin 2008-ci il 31 iyul tarixli «Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinə birdəfəlik maliyyə yardımı göstərilməsi haqqında», eləcə də «Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi konsepsiyasının təsdiq edilməsi haqqında» sərəncamları isə təsdiqləmişdir ki, ölkəmizdə mətbuata göstərilən dövlət qayğısı davamlı və sistemli səciyyə daşıyır. Belə bir konsepsiyanın imzalanması milli mətbuatın problemlərinin həllində keyfiyyətcə yeni mərhələnin əsasını qoymuşdur. Mətbuata dövlət dəstəyi konsepsiyasının imzalanması dövlət orqanları ilə kütləvi informasiya vasitələri arasında səmərəli əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsi, kütləvi informasiya vasitələrinin iqtisadi müstəqilliyinin və jurnalistlərin peşəkarlığının artırılması, vətəndaş cəmiyyəti quruculuğunda kütləvi informasiya vasitələrinin rolunun gücləndirilməsi məqsədindən irəli gəlmişdir.

Dövlət başçısının 2009-cu il 3 aprel tarixli «Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması haqqında» sərəncamı da məhz konsepsiyada əksini tapmış məsələlərin praktik surətdə gerçəkləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etmişdir.

Prezident İlham Əliyev milli mətbuatın qabaqcıl dövlətlərin mütərəqqi ənənələrinə əsaslanmaqla, eyni zamanda xalqın tarixi-milli xüsusiyyətlərini qorumaqla inkişaf etməsini vacib sayır. Azərbaycan mətbuatının 135 illik yubileyinin «Gülüstan» sarayında yüksək səviyyədə qeyd edilməsi, jurnalistikamızın inkişafında rolu olmuş qələm sahiblərinin mükafatlandırılması, 40-dək qəzetə və informasiya agentliyinə birdəfəlik yardımların verilməsi, Mətbuat Şurasının yeni binasının təntənəli açılış mərasiminin keçirilməsi, jurnalistlərin mənzil probleminin həlli üçün Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan 5 milyon manat vəsatin ayrılması da mətbuata yüksək diqqət və qayğının bariz təcəssümüdür. Xüsusi vurğulamaq lazımdır ki, mətbuat işçiləri üçün dövlət hesabına yeni mənzillərin inşası dünya miqyasında analoqu olmayan bir addımdır. 2010-cu ilin dekabrında həmin binaların tikintisi üçün Bakıda torpaq sahəsinin ayrılması da Azərbaycan Prezidentinin kütləvi informasiya vasitələrinə, jurnalist əməyinə verdiyi yüksək qiymətin göstəricisidir.

Bu il iyulun 22-də isə jurnalistlər üçün inşa edilmiş yeni bina istifadəyə verilmiş, 155 nəfər mətbuat və televiziya işçisi öz mənzil şəraitlərini yaxşılaşdırmaq imkanı qazanmışlar. Həmin gün növbəti binanın da əsasının qoyulması ölkə başçısının Azərbaycan jurnalistlərinin sosial problemlərinin həllinə böyük həssaslıqla yanaşdığını göstərir.

Bütün bunlar həm də təsdiqləyir ki, Azərbaycan hakimiyyəti ölkədə söz və mətbuat azadlığının başlıca təminatçısıdır və bu sahədə həyata keçirilən islahatları demokratikləşmə prosesinin mühüm tərkib hissəsi kimi dəyərləndirir.

**S.MUSTAFAYEV**

# Vergilər Nazirliyi «Ali media mükafatı»na layiq görülmüşdür

*İyulun 22-də Azərbaycan milli mətbuatının yaranmasının 138-ci ildönümünə həsr olunmuş mərasimdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdiri, professor Əli Həsənov çıxış edərək media nümayəndələrini peşə bayramları münasibətilə təbrik etmiş, onlara yeni yaradıcılıq uğurları arzulamışdır.*

Əli Həsənov bildirmişdir ki, bu gün artıq dünyanın müxtəlif ölkələrinin mediası ilə rəqabət aparmaq qabiliyyətinə malik olan Azərbaycanın güclü mətbuatı formalaşmışdır. Ölkəmizdə çağdaş jurnalistikanın bütün janrları dövrün tələbinə uyğun inkişaf edərək dünya miqyasında özünün layiqli yerini tutmaqdadır.

Prezident Administrasiyasının şöbə müdiri diqqətə çatdırmışdır ki, bu gün Azərbaycan dövləti özünün media siyasətini və müxtəlif mətbuat orqanlarına münasibətini heç bir fərq qoymadan davam etdirir. Azərbaycan dövləti azad sözə, siyasi plüralizm prinsiplərinə sadiq qalaraq bütün media qurumlarına eyni münasibət sərgiləyir.

Xatırladılmışdır ki, milli mətbuatımızın bayramı günündə Azərbaycan Prezidenti İlham Əliyevin jurnalistlər üçün inşa edilmiş yeni binanın açılış mərasimindəki nitqi, dövlətimizin başçısının media mənsubları ilə görüşündə mətbuatımızın bugünü və sabahı ilə bağlı söylədiyi fikirlər bu reallığı bir daha ortaya qoymüşdür. Həmin tədbirdə çağdaş Azərbaycan jurnalistikasını təmsil edən insanların Prezidentin müvafiq sərəncamı ilə tikilmiş binadan mənzil alması faktı ölkəmizdə mətbuata dövlət qayğısının ən bariz nümunəsindən biri kimi tarixə düşəcəkdir.

Mətbuat Şurasının sədri Əflatun Amaşov çıxışında Azərbaycan mətbuatının keçdiyi çətin və şərəfli tarixi yola nəzər salmış, «Əkinçi» qəzetinin xalqımızın həyatında oynadığı rolu qeyd etmişdir.

Sonra Mətbuat Şurasının təsis etdiyi «Ali media mükafatı» sahiblərinə təqdim olunmuşdur. Səhiyyə Nazirliyi, Baş Prokurorluq, Dövlət Neft Fondu, Bakı Şəhər Yol Polisi İdarəsi və Bakı Şəhər Elektrik Şəbəkəsinin mətbuat xidmətləri ilə yanaşı, Vergilər Nazirliyinin Analitik-informasiya şöbəsi də «Azərbaycan mediası ilə səmərəli əməkdaşlığın qurulmasındakı xidmətlərinə görə» mükafata layiq görülmüşdür.




# İşlə istirahətin səmərəli tarazlığı

*Vergi işçilərinin istirahətinin səmərəli təşkili, ictimai-mədəni tədbirlərin keçirilməsi, respublikamızın müxtəlif bölgələrinə səyahətlərin təşkil olunması Vergilər Nazirliyinin diqqət mərkəzində duran məsələlərdəndir.*

Nazirliyin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə Azərbaycanın görməli yerlərinə həftəsonu təşkil olunan ekskursiya səfərləri işlə istirahət arasında tarazlıq yaratmaq baxımından əla fürsət sayıla bilər. Masallı rayonunun «Dəstvənd» istirahət mərkəzinə ekskursiya turu da bu tədbirlər sırasında idi. Maraqlı keçən ekskursiya çərçivəsində iştirakçılar Azərbaycanın igid oğlu, Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun Ev Muzeyini, Lənkəran şəhər Tarix-Diyarşünaslıq Muzeyini ziyarət etmiş, Masallı rayonunda yerləşən Baba bulağını, «İstisu» sanatoriyasını gəzmişlər. İstirahətin şən və əyləncəli keçməsi üçün «Dəstvənd» istirahət mərkəzində müsiqi gecəsi təşkil olunmuşdur.



# Qeyri-neft sektorunda ixrac idxalı üstələyir

*İqtisadiyyatın neft-qaz gəlirlərindən asılılığının azaldılması, qeyri-neft sektorunun inkişafı və ixracın stimullaşdırılması istiqamətində sistemli tədbirlər həyata keçirən Azərbaycan xarici ticarət dövriyyəsinin strukturunda da müsbət keyfiyyət dəyişikliklərinə nail olur. Xüsusilə qeyri-neft sektoru üzrə ixracın dinamik artımı ölkədə liberal biznes mühitinin formalaşdırılması istiqamətində həyata keçirilən tədbirlərin səmərəliliyini göstərir.*

Respublikanın ixrac potensialının möhkəmləndirilməsində məqsəd davamlı inkişafın təmin edilməsi və makroiqtisadi sabitliyin qorunub saxlanılmasıdır. Dövlət həyata keçirdiyi tədbirlərlə həm də iqtisadiyyatın qeyri-neft sektorunun inkişafına dəstək verməyə, rəqabətqabiliyyətli mal, məhsul və xidmətlərin region və dünya bazarlarına ixracına yardımçı olmağa çalışır. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2013-cü ilin yanvar-may aylarında Azərbaycanın xarici ticarət dövriyyəsi 14,2 mlrd. ABŞ dolları təşkil edib. Bunun 11 mlrd. dolları ixracın, 3,2 mlrd. dolları isə idxalın hesabına yaranıb. Beləliklə, qeyri-neft sektoru üzrə ixrac idxalı əhəmiyyətli dərəcədə üstələyib.

Xarici ticarət dövriyyəsinin 61%-i inkişaf etmiş, 39%-i isə inkişaf etməkdə olan ölkələrin dövriyyəsi hesabına formalaşıb. Qeyd olunan müddətdə dünyanın 132 ölkəsi ilə ticarət əlaqəsi aparılıb: 83 ölkəyə əmtəə ixrac, 121 ölkədən idxal edilib. İxrac məhsulları sırasında xam neft və neft məhsulları, təbii qaz, meyvə-tərəvəz, bitki və heyvan mənşəli yağlar, idxal məhsulları arasında isə qida məhsulları, qara metallar və onlardan hazırlanan məmulatlar, mexanizmlər, elektrik cihazları, nəqliyyat vasitələri və onların hissələri üstünlük təşkil edib. Ümumilikdə, 2013-cü ilin birinci yarısında Azərbaycandan yük daşımalarının həcmi 85,5 milyon ton təşkil edib.

Qeyri-neft məhsullarının ixracının ötən ilin müvafiq dövrü ilə müqayisədə 16,3% artması da respublikanın ixrac potensialının gücləndiyinə dəlalət edir. İxracda ənənəvi olaraq xam neft, neft məhsulları, təbii qaz, kimya sənayesi məhsulları ilə yanaşı, pambıq lifi, qara metallar və onlardan hazırlanan məmulatlar, alüminium, habelə meyvə-tərəvəz, bitki və heyvan mənşəli yağlar, alkoqollu və alkoqolsuz içkilər üstünlük təşkil edib.

Qeyri-neft-qaz sənayesində ixracın artımını müsbət tendensiya kimi dəyərləndirən iqtisadçı ekspertlərin fikrincə, hökumətin son illər yerli məhsulların ixracının stimullaşdırılması sahəsində həyata keçirdiyi tədbirlər öz nəticəsini verir. Ölkədə istehsal sahibkarlığının inkişafına göstərilən maddi-texniki, metodiki və konsultativ dəstək nəticə etibarilə rəqabətə davamlı məhsul istehsalında əsaslı dönüşə imkan yaradıb.

İnfrastrukturun müasirləşdirilməsi, iş adamlarına istehsal yönümlü müəssisələrin açılması üçün güzəştli kreditlərin verilməsi, investisiyaların



cəlb edilməsinə mane olan bürokratik amillərin aradan qaldırılması, o cümlədən elektron xidmətlərin həcminin genişləndirilməsi tədbirləri bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Regionlarda müasir tələblərə cavab verən və yüksək texnologiyalarla təchiz olunan yeni sənaye və emal müəssisələrinin istifadəyə verilməsi dünya bazarlarına rəqabətə davamlı məhsulların çıxarılmasına, bütövlükdə ixracın şaxələndirilməsinə imkan yaradıb.

Sahibkarlıq subyektlərinin xarici bazarlara çıxış imkanlarının genişlənməsi həm də qanunvericiliyin təkmilləşdirilməsi və gömrük prosedurlarının sadələşdirilməsi ilə izah olunur. Ölkə başçısının 11 noyabr 2008-ci il tarixli «Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında «bir pəncərə» prinsipinin tətbiqi haqqında» fərmanı əlverişli geostrateji məkanda yerləşən respublikamızda gömrük sisteminin təkmilləşdirilməsinə, bu sahədə informasiya-kommunikasiya texnologiyalarının imkanlarından geniş istifadəyə şərait yaradıb. Belə bir sistemin formalaşması ümumən dövlət sərhədinin keçid məntəqələrinin buraxılış qabiliyyətinin artırılmasına, keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılması zamanı süni maneələrin aradan qaldırılmasına, idxal-ixrac əməliyyatlarının müasir tələblərə uyğun aparılmasına xidmət edib.

Nazirlər Kabinetinin 2011-ci il 8 fevral tarixli qərarı ilə təsdiq olunmuş «2011-2013-cü illər üçün qeyri-neft məhsullarının ixracının stimullaşdırılmasına dair Tədbirlər Planı» da bu baxımdan mühüm əhəmiyyətə malikdir. Tədbirlər Planında müəssisələrdə istehsal prosesinin qabaqcıl texnologiyalar əsasında təşkili üçün sahibkarlıq subyektlərinin dəstəklənməsi ilə yanaşı, ixrac prosedurlarının sadələşdirilməsi, ixrac məqsədli məhsulların istehsalının kreditləşdirilməsi, ixrac üçün perspektivli sayılan ölkələrdə müvafiq sərgilərin, forumların təşkili, potensial ixrac bazarı ölkələrində Azərbaycan ticarət evlərinin yaradılması və digər tədbirlər əksini tapıb.

«Azərbaycan - 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında da respublikanın yüksək rəqabət qabiliyyətinə malik məhsullar ixrac etməsi qarşıya başlıca vəzifələrdən biri kimi qoyulub. Həyata keçirilən tədbirlər nəticəsində qeyri-neft sektoru üzrə adambaşına düşən ixrac həcminin 1000 ABŞ dollarına çatdırılması nəzərdə tutulur. Bunun üçün yüksək əlavə dəyər yaradan ixrac yönümlü iqtisadiyyatın formalaşdırılması da prioritet məqsədlərdən biridir.

Sahibkarlıq subyektlərinin xarici bazarlara çıxış imkanlarının genişləndirilməsi məqsədilə yaradılmış İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) da ölkə sahibkarlarının ixrac potensialının artırılmasında, investisiya imkanlarının genişləndirilməsində, potensial tərəfdaşların tapılmasında və birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsində sahibkarlara dəstək verir. Sahibkarların işgüzar əlaqələrinin inkişafı məqsədilə 2013-cü ilin birinci yarısında həm ölkə daxilində, həm də xaricdə müxtəlif biznes-forumlar, sərgilər, seminar və konfranslar keçirilib. Bu cür tədbirlər isə yerli şirkətlərin tanıdılması, onların məhsullarının xarici bazarlara çıxarılması, beynəlxalq işgüzar əlaqələrin inkişafı baxımından əhəmiyyətlidir.

**Samir MUSTAFAYEV**

# Saxta pullara qarşı təsirli mübarizə tədbirləri

*Azərbaycan iqtisadiyyatının yüksək inkişaf tempi, maliyyə-bank sektorunda likvidiyin və valyuta bazarının güclənməsi, eləcə də ödəniş sistemlərinin dayanıqlı inkişafı ümumilikdə valyuta sektorunun bütün seqmentləri üzrə dinamikanı artırıb.*

Azərbaycan manatına dərin inam və etibar, milli valyutanın son illər öz dəyərini artırması, regionda aparıcı tədavül vasitəsinə çevrilməsi, güclü ödəniş sisteminin ən mühüm vasitələrindən biri olması milli pul nişanlarına qarşı bəzi riskləri, yəni onun saxta formalarının hazırlanması risklərini də artırır.

Mərkəzi Bankın Nağd pul departamentinin rəis müavini Hacıbaba Məsimovun qeyd etdiyinə görə, 2012-ci ildə pul bazarında saxta pullarla mübarizə sahəsində aparılan tədbirlər zamanı 600 saxta əskinas aşkar olunaraq tədavüldən çıxarılıb. Saxta pulların, demək olar ki, hamısı Azərbaycan manatı olub. Saxta pul hazırlayanlar daha çox surətçıxarma aparatlarından, printerlərdən istifadə ediblər. Amma son zamanlar bu cinayətlə məşğul olan qrup digər texnologiyalardan da peşəkarlıqla istifadə edirlər ki, bu da vətəndaşların saxta pulları tanımasına çətinlik yaradır.

Bu problemə bütün ölkələrin nağd pul bazarında təsadüf olunduğunu bildirən H. Məsimovun sözlərinə görə, güclü maliyyə və ödəniş alətlərinə tələbin çoxalması pul nişanlarının saxta nümunələrinin hazırlanması ehtimallarının miqyasının artmasına da səbəb olur. Avropa və ABŞ-da bu cür pullara daha çox rast gəlinir. Güclü ödəniş vasitəsinə çevrilmiş və regional miqyasda cəlbedici valyuta növü kimi möhkəmlənmiş Azərbaycanın milli pul nişanlarının saxta nümunələrinin hazırlanması da qeyd olunan tendensiyanın təzahürü sayıla bilər.

Beynəlxalq təcrübəyə görə, adətən, hər 20 min əskinasdan biri saxta çıxır. Aparılmış təhlillərə görə, Azərbaycanda hər 250 min əskinasin biri saxtadır. Göründüyü kimi, ABŞ və avrozaona ölkələri ilə müqayisədə ölkəmizdə bu rəqəm bir neçə dəfə aşağıdır.

**Milli valyutamız ABŞ dolları və Avropanın vahid tədavül aləti olan avro qarşısında əhəmiyyətli dərəcədə möhkəmlənib**

Azərbaycan manatı regionda yeganə valyutadır ki, denominasiya prosesi həyata keçirildikdən sonra öz nominal dəyərini nəinki qoruyub saxlayıb, həm də ilbəil digər xarici dönərli valyutalarla müqayisədə daha da möhkəmlənib. Milli valyutamız ABŞ dolları və Avropanın vahid tədavül aləti olan avro qarşısında əhəmiyyətli dərəcədə möhkəmlənib. Azərbaycanda dərin makroiqtisadi təməllərin yaradılması, maliyyə sabitliyinin möhkəmlənməsi istiqamətində çevik iqtisadi addımların atılması, Mərkəzi Bank tərəfindən həyata keçirilən pul-kredit siyasətinin səmərəliliyinin artırılması manatın yerli maliyyə bazarı ilə yanaşı, regionda aktiv pul aləti kimi çəkisinin yüksəlməsinə səbəb olmaqdadır.

Həyata keçirilən pul siyasətinin makro və mikroiqtisadi diaqnostikasının gücləndirilməsi, monetar siyasətin balanslaşdırılmış sistem üzrə aparılması manatın davamlılığını möhkəmləndirir. Bütün bu amilər və ümumdünya valyuta bazarlarında baş verən mənfi sikllər Azərbaycan valyutasının dəyərinin artmasına əlverişli meyillər yaradıb. Manatın məzənnəsinin güclənməsi və bununla da regional səviyyədə əsas pul aləti kimi çıxış etməsi pul nişanlarının saxtalaşdırılmasına cəhd edən şəxslərin potensial risklərini meydana çıxarıb. Məsələn, son illər bir sıra qruplar manatın müxtəlif nominalları üzərində imitasiyalar edərək milli pul nişanlarının vətəndaşlar tərəfindən ayırd edilməsi çox çətin olan oxşarlarını hazırlayırlar. Bir sıra hallarda bu pul nişanları tədavül dövriyyəsində istifadə olunur və insanlar saxta pulu seçə bilmirlər.

Onu da qeyd edək ki, saxta pullarla mübarizə tədbirlərinin həyata keçirilməsində Vergilər Nazirliyinin də qarşısında müəyyən vəzifələr durur. 2012-ci ildə Mərkəzi Bank, Daxili İşlər, İqtisadi İnkişaf və Vergilər nazirlikləri tərəfindən milli pul nişanlarının saxtalaşdırılmasının qarşısının alınması və bu sahədə effektiv mübarizə tədbirlərinin gücləndirilməsinə dair protokol imzalanıb. Dövlət qurumları birgə fəaliyyət sayəsində milli valyutanın nomianal dəyərinin artdığı və bölgədə aparıcı pul nişanına çevrildiyi bir dövrdə manatın saxta nümunələrinin hazırlanmasına qarşı daha güclü mübarizə tədbirləri aparmağı qarşıya məqsəd qoyublar. Bu, cinayətkar qrupların milli pul nişanlarının saxta nümunələrini yaratmaqla bağlı fırıldaqçı hərəkətlərinin qarşısını alacaq. Birgə fəaliyyət planına əsasən, üzərində pul nişanları imitasiya olunan müxtəlif növ avadanlıqların və məhsulların ölkəyə idxalının qarşısının alınması və onların pərakəndə satış müəssisələrindən geri yığılması ilə bərabər, digər zəruri tədbirlərin də həyata keçirilməsi nəzərdə tutulur.

**Elbrus CƏFƏRLİ**



Akif Musayev
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin
Vergi siyasəti və strateji araşdırmalar
Baş İdarəsinin rəisi

Rakurs

# Verginin patent şəklində tutulması

Vergi sisteminin səmərəliliyinin təmin olunması vergi yükünün ayrı-ayrı iqtisadi subyektlər arasında ödəmə qabiliyyətinə uyğun olaraq bölüşdürülməsinin təşkil olunmasından və sahibkarlığın inkişafına əlverişli iqtisadi şəraitin yaradılmasından çox asılıdır. Bunlara nail olmaq üçün bəzi problemlərin həlli tələb edilir. Vergi yükünün düzgün və obyektiv şəkildə bölüşdürülməsində çətinlik yaradan problemlərdən biri bəzi sahibkarlıq subyektlərinin vergi uçotuna durmadan fəaliyyət göstərməsi və ya qeydiyyatdan keçmiş vergi ödəyiciləri arasında vergidən yayınma hallarının olması ilə bağlıdır.

Vergi sisteminin səmərəliliyinin təmin olunması sahəsində meydana çıxan daha bir problem sahibkarlıq fəaliyyətinin inkişafı üçün əlverişli iqtisadi şəraitin yaradılması ilə bağlı tədbirlərin həyata keçirilməsində özünü büruzə verir. Dövlətin həyata keçirdiyi iqtisadi islahatlar adətən orta və iri müəssisələrin fəaliyyət şəraitlərinə uyğun şəkildə aparılır. Bunun nəticəsində dövlət tərəfindən müəyyən edilmiş təsərrüfat əməliyyatlarının uçotunun aparılması, hesabatların tərtibi və s. inzibatçılıq qaydaları daha çox iri müəssisələrin fəaliyyətinə uyğunlaşdırılmış olur. Belə olan halda, kiçik sahibkarlıq subyektləri tərəfindən bu qaydalara riayət olunması nisbətən böyük inzibatçılıq xərcləri ilə başa gəlir ki, bu da onların fəaliyyətinin səmərəliliyinə mənfi təsir göstərir.

Bu problemlərin aradan qaldırılması məqsədilə beynəlxalq təcrübədə kiçik sahibkarlıq subyektləri üçün uçot və vergitutmanın sadələşdirilmiş rejimi tətbiq edilir. Sadələşdirilmiş vergi rejiminin tətbiqinin əsas üstünlüyü onun inzibatçılığının təkcə vergi ödəyiciləri üçün deyil, həm də vergi orqanları üçün asan və sadə olmasındadır. Bunun da nəticəsində vergi orqanlarının yoxlamalara çəkdikləri inzibatçılıq xərclərinin səmərəliliyinin artırılması təmin edilir.

Hazırda dünyanın əksər ölkələrinin vergi sisteminə sadələşdirilmiş maliyyə hesabatlılığına və verginin şərti yolla hesablanması üsullarına əsaslanan vergi daxildir. Bu vergini, adətən, şərti hesablanmış vergi də adlandırırlar. Şərti hesablanmış verginin ən geniş yayılmış formalarından birinə verginin patent şəklində ödənilməsi aid edilir. Patent vergisinin ödənilməsi əsasən kiçik sahibkarlar subyektləri, o cümlədən fərdi sahibkarlar tərəfindən həyata keçirilir. Patentin dəyəri isə təsərrüfat subyektinin dövriyyəsindən asılı olmayaraq konkret fəaliyyət sahəsi üzrə müəyyən edilir.

*Şərti hesablanmış verginin ən geniş yayılmış formalarından birinə verginin patent şəklində ödənilməsi aid edilir*

Dünyada patent vergisinin tətbiqinin vahid bir forması yoxdur və hər bir ölkədə verginin bu formada tutulmasının özünəməxsus xüsusiyyətləri vardır. Misal üçün, Belarus Respublikasının vergi qanunvericiliyində müəyyən fəaliyyət növləri üçün dövlət və yerli vergiləri əvəz edən patent vergisi tətbiq olunur. Bu vergi işçilərinin sayı 15-dən çox olmayan sahibkarlıq subyektləri üçün nəzərdə tutulub. Aksiz malları istehsal edən şəxslər, banklar, sığorta təşkilatları, investisiya fondları tərəfindən patent vergisi tətbiq edilə bilməz. Eyni zamanda, patent vergisinin tətbiq edilməsi üçün onu tətbiq edən kiçik sahibkarlıq subyektlərinin rüblük dövriyyəsi minimum əməkhaqqının 5 min mislindən çox olmamalıdır. Qazaxıstanda kiçik sahibkarlıq subyektlərinin vergilərin hesablanıb ödənilməsi qaydasını sərbəst şəkildə seçmək hüququ vardır. Burada xüsusi vergi rejiminin tətbiqi birdəfəlik talonun və ya patentin verilməsi formasında da həyata keçirilir. Birdəfəlik talon o vaxt verilir ki, fiziki şəxsin sahibkarlıq fəaliyyəti məhdud bir dövrü əhatə etmiş olsun. Patent vergisini isə illik dövriyyəsi 1 mln. tengedən (təxminən 5000 ABŞ dollarından) çox olmayan kiçik sahibkarlıq subyektləri tətbiq edə bilərlər. Patentin dəyəri sahibkar tərəfindən əldə edilməsi ehtimal olunan gəlirin 3%-i həcmində müəyyən edilir. Litvada muzdlu işçi cəlb etməyən fiziki şəxslər təsərrüfat fəaliyyətini lisenziya almaqla həyata keçirirlər. Bu zaman lisenziyaya görə ödənilən ödəniş gəlir vergisini, əlavə dəyər vergisini, digər vergiləri və sosial fonda ödəmələri əvəz etmiş olur. Ukraynada kiçik sahibkarlıq subyektləri üçün vahid vergi müəyyən olunmuşdur. Tətbiq olunan vahid vergi sahibkarın gəlir vergisini, ƏDV-ni, digər vergiləri və bir çox hallarda cəlb olunan muzdlu işçilərin əməkhaqqından tutulan gəlir vergisini də əvəz edir.

Azərbaycanda patent şəklində verginin ödənilməsi Vergi Məcəlləsinin qüvvəyə minməsindən əvvəlki dövrlərdə tətbiq olunurdu. Patentin dəyəri sahibkarlıq fəaliyyətinin 5 qrupa bölünmüş növləri üzrə gəlirlilik və fəaliyyətin həyata keçirildiyi yer nəzərə alınmaqla müəyyən edilirdi. Sahibkarın istəyindən asılı olaraq patent bir il, yaxud ilin tam ayı üçün verilə bilərdi. Məcəllə qüvvəyə mindikdən sonra sadələşdirilmiş vergi rejimini tətbiq edən ödəyicilər iki qrupa bölünmüşdür. Bunlardan bir qrupu hasilatdan vergini hesablayıb ödəyənlərə, digər qrupu isə vergini fəaliyyətin nəticəsindən və dövriyyədən asılı olmayaraq yalnız həyata keçirdikləri fəaliyyət növünə görə ödəyən təsərrüfat subyektlərinə (sərnişin və yük daşımalarını, mənzil tikintisini həyata keçirən şəxslər) aiddir. Vergi Məcəlləsinə əsasən, avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını həyata keçirən şəxslər tərəfindən sadələşdirilmiş vergi «fərqlənmə nişanı» alınmaqla həyata keçirilir ki, bu da patent vergisinin bir formasl kimi qiymətləndirilə bilər. Hazırda patent vergisinin sadələşdirilmiş vergi ödəyicilərinin digər kateqoriyalarına aid edilməsi məsələsi müvafiq araşdırmaların və müzakirələrin aparılmasını tələb edən məsələlərdən biri hesab edilir.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir.

# Elektron imza

*Elektron imza nədir və onu əldə etmək üçün hara müraciət etmək lazımdır?*

«Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinə əsasən, elektron imza digər verilənlərə əlavə edilən və ya onlarla məntiqi əlaqəli olan, imza sahibini identikləşdirməyə şərait yaradan verilənlərdir. Bildirək ki, informasiya sistemində istifadə üçün elektron formada təqdim olunan sənədlər (elektron sənədlər) elektron imza ilə təsdiq edilir. Elektron imza üçün sertifikat isə Sertifikat xidmətləri mərkəzi tərəfindən verilir. Qanunun 11.1-ci maddəsinə əsasən, sertifikat müraciət etmiş şəxslə Mərkəz arasında bağlanılmış yazılı müqavilə əsasında təqdim edilir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28 yanvar 2006-cı il tarixli 27 nömrəli qərarı ilə «Sertifikat xidmətlərinin göstərilməsi, sertifikatın verilməsi və reyestrin aparılması Qaydaları»nın 3-cü bəndinə sertifikatın verilməsi ilə bağlı müddəalar müəyyən edilmişdir. Qaydalarda nəzərdə tutulur ki, şəxs müvafiq formalı ərizə ilə Mərkəzə müraciət etməli və ərizəyə Qaydalarda qeyd olunmuş sənədlər əlavə edilməlidir. Təqdim olunmuş sənədlər düzgün olduqda, müraciət etmiş şəxslə Mərkəz arasında yazılı müqavilə bağlanılır və ona sertifikat verilir, əks halda isə Mərkəz sertifikatın verilməsindən imtina edir. Sertifikat verildiyi andan aktivləşdirilir və həmin andan elektron imzadan istifadə edilə bilər. Qanunun 2-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla, elektron imza və elektron sənəd müvafiq vasitələr tətbiq olunmuş bütün fəaliyyət sahələrində istifadə edilə bilər. Elektron sənəd vasitəsilə rəsmi və qeyri-rəsmi yazışmalar, hüquqi məsuliyyət və öhdəliklər doğuran sənəd və informasiya mübadiləsi aparıla bilər.

Onu da bildirək ki, Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi (ASXM) 2013-cü ilin may ayından fəaliyyətə başlamışdır. Ərizə ilə müraciət etmiş şəxslərə ASXM tərəfindən elektron imza üçün sertifikatlar - Asan İmza SİM kartı üzrə sertifikatlar (Asan İmza) verilir. ASXM tərəfindən verilən sertifikatı əldə etmək üçün, ilk növbədə, mobil operatora müraciət etmək lazımdır və bununla Asan İmza SİM kartı, yəni elektron imza vasitəsi olan mobil telefon üçün xüsusi SİM kart əldə edilə bilər. Asan İmza (Mobil imza) ilə bütün mövcud e-xidmətlərdən istifadə etmək mümkündür.

# İşçilərin sığortalanması

*«İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında» Qanuna əsasən, hüquqi şəxslə və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslə bağlanmış əmək müqaviləsi və ya mülki-hüquqi müqavilə əsasında əmək funksiyalarını yerinə yetirən şəxslər, dövlət orqanlarında çalışan dövlət qulluqçuları və digər şəxslərlə icbari sığorta müqaviləsi bağlanılmalıdır.*

Azadlığın məhdudlaşdırılması ilə cəzaya məhkum olmuş və işləyən şəxslər, məcburi dövlət sosial sığortasına cəlb olunması nəzərdə tutulan seçkili ödənişli vəzifələrdə işləyənlər, istehsalat təcrübəsi keçən tələbə və şagirdlər, müəssisələrdə işə cəlb edilən hərbi qulluqçular da bu qanundan yararlana bilərlər. Bundan əlavə, təbii fəlakətlərin qarşısının alınmasına və nəticələrinin aradan qaldırılmasına, habelə hərbi və fövqəladə vəziyyət rejimində işlərin yerinə yetirilməsinə cəlb edilən şəxslər, fərdi qaydada sahibkarlıq və əmək fəaliyyəti ilə məşğul olan fiziki şəxslər, ölkə ərazisində əmək fəaliyyəti ilə məşğul olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər də sığorta olunanlar sırasındadır.

**Bu ilin 6 ayı ərzində icbari sığortalar üzrə sığorta haqları 68.505.077,28 manat, sığorta ödənişləri isə 17.080.499,23 manat olub**



Sözügedən icbari sığorta-istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından sığorta olunanların həyatına və sağlamlığına dəyən zərər nəticəsində onların peşə əmək qabiliyyətinin itirilməsi və ya ölümü ilə bağlı sığorta ödənişinin verilməsini nəzərdə tutan sığorta sinfidir. Qanun sığorta olunanın qanunvericiliklə müəyyən edilmiş qaydada istehsalatdan ayrılmadan və ya istehsalatdan ayrılmaqla təhlükəsiz əmək metodlarına, əməyin mühafizəsi qaydalarına və təlimatlarına dair ödənişsiz təlim keçmək, qanunvericiliklə müəyyən edilmiş qaydada sığortalının hesabına ilkin və vaxtaşırı icbari tibbi müayinələrdən keçmək, sığortalıdan və sığortaçıdan icbari sığorta ilə bağlı hüquqları və vəzifələri barədə ödənişsiz məlumat almaq, qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək imkanı verir.

Sığorta hadisəsinin müəyyən olunması isə istehsalatda bədbəxt hadisə haqqında qanunvericiliklə müəyyən edilmiş formada tərtib olunmuş akt, yaxud xeyrinə icbari sığorta müqaviləsi bağlanılmalı şəxslə bağlı istehsalatda bədbəxt hadisənin baş verməsi barədə məhkəmə qərarı, müvafiq icra hakimiyyəti orqanının istehsalatda bədbəxt hadisə və ya peşə xəstəliyi nəticəsində sığorta olunanın peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsini təsdiq edən qərarı və ya şəxsin ölümü haqqında şəhadətnamə əsasında müəyyən olunur.

Sığorta hadisəsi nəticəsində zərər çəkmiş sığorta olunanın peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsinin müəyyənləşdirilməsi, o cümlədən həmin məqsədlə ilkin və təkrar müayinə edilməsi qaydası qanunvericiliklə müəyyən olunur. Əgər sığorta hadisəsi sığorta olunanın həmin hadisənin baş verməsinə yönəldilmiş qəsdən etdiyi hərəkətlərinin nəticəsi olarsa, sığorta olunanın əmək funksiyalarını icra edərkən alkoqollu içkilər, narkotik vasitələr və psixotrop, toksik və digər zəhərli maddələrin təsirindən sərxoş vəziyyətdə olması halında baş verərsə, o zaman sığorta ödənişindən imtina edilir.

«İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında» Qanuna əsasən, icbari sığorta müqaviləsi yalnız həyat sığortası üçün lisenziyası olan və bu qanunla əhatə edilən icbari sığorta növü üzrə fəaliyyətin həyata keçirilməsinə sığorta nəzarəti orqanının verdiyi icazəyə malik olan sığortaçı tərəfindən bağlana bilər. Maliyyə Nazirliyinin Dövlət Sığorta Nəzarəti Xidmətinin məlumatına görə, bu ilin 6 ayı ərzində icbari sığortalar üzrə sığorta haqları 68.505.077,28 manat, sığorta ödənişləri isə 17.080.499,23 manat olub. Bu məbləğin istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta üzrə sığorta haqqı 17.622.849,39 manat, sığorta ödənişləri isə 633.180,35 manat təşkil edib...

**AYTƏN**

*Azərbaycan Mətbuat Şurası və «Vergilər» qəzetinin təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş «Heydər Əliyev və Azərbaycanda vergi siyasəti» mövzusunda fərdi jurnalist yazıları müsabiqəsi müasir vergi sistemi ilə bağlı yeniliklərin, habelə qarşıda duran əsas hədəflərin cəmiyyətə çatdırılması baxımından mühüm əhəmiyyət daşımışdır. «Heydər Əliyevin iqtisadi inkişaf strategiyasında vergi siyasəti», «Nağdsız ödəniş sisteminin inkişaf perspektivləri», «Əmək müqaviləsi: gələcəyə təminat» istiqamətləri üzrə keçirilmiş müsabiqəyə ümumilikdə 44 yazı təqdim edilmiş, onlardan 9-u əsas mükafata layiq görülmüşdür.*

*Müsabiqədə yüksək yer tutmuş növbəti məqaləni təqdim edirik.*

# Nağdsız ödəniş sisteminin inkişaf istiqamətləri

*Azərbaycanda bu gün reallaşdırılan sosial-iqtisadi, siyasi strategiyanın əsas prinsiplərindən biri də şəffaflıqdır. Bu, vətəndaşlarla qarşılıqlı münasibətlərdə mənfi halların, korrupsiya elementlərinin yaranmasının qarşısını alan başlıca amillərdən biridir. İndiyə kimi şəffaflığın təmin edilməsi, korrupsiya hüquqpozmalarına qarşı səmərəli mübarizənin aparılması məqsədilə bir neçə normativ hüquqi akt qəbul edilmiş, bir sıra mühüm institusional tədbirlər həyata keçirilmişdir.*

Heç kəsə sirr deyil ki, pul hesablaşmalarının, dövlət qurumlarına məcburi ödənişlərin nağd qaydada aparılması şəffaflığın təmin edilməsinə, korrupsiya hüquqpozmalarına qarşı səmərəli mübarizənin aparılmasında maneələr törədir, qeyri-leqal gəlirlərin gizlədilməsinə, vergidən yayınmalara şərait yaradır. Belə halların aradan qaldırılması məqsədilə Azərbaycan Prezidentinin müvafiq fərmanları ilə dövlət yol polisinə, gömrük xidmətinə və digər dövlət qurumlarına cərimələrin, rüsumların və digər ödənişlərin POS-terminal vasitəsilə, yaxud elektron qaydada həyata keçirilməsi tapşırığı verilmişdir. Bundan başqa, ölkəmizdə müasir milli ödəniş sisteminin yaradılması məqsədilə elektron hesablaşma mexanizmi yaradılmışdır. Bu isə ödənişlərin real vaxt rejimində elektron qaydada və ya plastik kartlar vasitəsilə şəffaf, təhlükəsiz, səmərəli reallaşdırılmasına geniş imkanlar açır.

Yeri gəlmişkən, respublikamızda nağd hesablaşmaların məhdudlaşdırılması və alqı-satqı əməliyyatlarının, əsasən, nağdsız aparılması sisteminə keçilməsinə təxminən 8 il əvvəl start verilib. Dövlət başçısının sərəncamı ilə 2004-cü ilin dekabrında «Azərbaycan Respublikasında Milli Ödəniş Sisteminin inkişafı üzrə 2005-2007-ci illər üçün Dövlət Proqramı»nın təsdiq edilməsi isə nağdsız hesablaşmaların tətbiqi prosesini gücləndirib. Məlumdur ki, nağd hesablaşmaların məhdudlaşdırılması həm də antiinflyasiya tədbirlərindən biri kimi həyata keçirilir.



Dövlət başçısının imzaladığı «Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında» fərmanında elektron xidmətlərin göstərilməsi və ödəmələrin elektron qaydada təşkili ilə bağlı dövlət orqanlarına və Nazirlər Kabinetinə tapşırıqlar verilmişdir. Nazirlər Kabineti 2011-ci il 24 noyabr tarixli qərarı ilə dövlət orqanları tərəfindən elektron xidmətlər göstərilməsi barədə qaydaları və elektron xidmət növlərinin siyahısını təsdiq etmişdir. Həmin tapşırıqların bütün dövlət qurumları tərəfindən icrası ilə bağlı qarşıya qoyulan tələbləri əlaqələndirilmiş şəkildə yerinə yetirmək istiqamətində əməli tədbirlər həyata keçirilmişdir. Lakin görüləsi işlər də az deyil. Bu barədə Nazirlər Kabinetinin 2012-ci ilin sosial iqtisadi inkişafının yekunlarına və 2013-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Prezident İlham Əliyev demişdir: «Maliyyə məsələləri ilə bağlı olan bir məsələni də qeyd etmək istəyirəm. Baxmayaraq ki, mən bu məsələ barədə dəfələrlə fikirlərimi, iradlarımı bildirmişəm və müəyyən işlər görülübdür, ancaq hələ ki lazımi səviyyədə deyildir. Azərbaycanda nağdsız ödəmələr çox aşağı səviyyədədir. Bu, böyük problemdir. Bu, bir tərəfdən bu sistemdə şəffaflığın tam təmin edilməsi üçün bizə imkan vermir, eyni zamanda, xoşagəlməz halların mövcudluğunu da şərtləndirir. Hesab edirəm ki, bu il daha da ciddi tədbirlər görülməlidir. Mən təkliflər gözləyirəm ki, nağdsız hesablaşmaların, ödəmələrin sayı artsın. 2012-ci ildə doğrudan da bu sahədə çox böyük işlər görülmüşdür və mən bu işləri qiymətləndirirəm. Hesab edirəm ki, biz bu il və bundan sonrakı illərdə də bu sahəyə çox ciddi fikir verməliyik. Burada, necə deyərlər, heç bir yeni üsul icad etməməliyik, inkişaf etmiş ölkələrin təcrübələrinə baxmaq kifayətdir».

İqtisadi və Sosial İnkişaf Mərkəzinin sədri Vüqar Bayramov söhbətində bildirdi ki, POS-terminalların quraşdırılması obyektlərin vergidən yayınmasına imkan vermir. Həm Vergilər Nazirliyi, həm də Mərkəzi Bank ticarət obyektlərinin dövriyyəsinə nəzarət etmək imkanı qazanır. Əksər inkişaf etmiş ölkələrdə POS-terminalların quraşdırılması prosesi artıq başa çatıb. Eyni zamanda, ABŞ və Avropa Birliyinə üzv olan ölkələrdə əməliyyatların, demək olar ki, 80 faizi bu terminallar vasitəsilə aparılır. ABŞ-da əhalinin çox az hissəsi üzərində nağd vəsait gəzdirir. Onlar əsasən kredit kartlarından istifadə edərək əməliyyatları həyata keçirməyə üstünlük verirlər. Azərbaycanda da POS-terminalların quraşdırılması ilə bağlı ümumi vəziyyəti təhlil edən zaman son illər onların sayında kəskin artımın olması nəzərə çarpır.

İnsanların POS-terminallardan istifadə ilə bağlı məlumatlılıq səviyyəsindən danışarkən V.Bayramov dedi ki, bu sahədə vəziyyət o qədər də ürəkaçan deyil. Amma bütövlükdə tendensiyanı qiymətləndirsək, son illər plastik kartlardan yararlanan şəxslərin sayında artım var. Mərkəzi Bankın rəsmi məlumatları da göstərir ki, əhali onlardan istifadəyə maraqlıdır. Bu, həm ölkə daxilində plastik kartlardan istifadə imkanlarının olması, həm də xarici səfərlər zamanı insanların özləri ilə nağd pul gəzdirməmələri ilə əlaqədardır. Plastik kartların digər müsbət cəhəti odur ki, pulların qorunması etibarlı şəkildə təmin edilir. Belə ki, əgər nağd pul itərsə, onu geri qaytarmaq mümkün deyil. Amma işlədilən plastik kartla bağlı belə bir hal baş verərsə, banka müraciət etməklə vəziyyətdən çıxmaq mümkün olar.

Ödəniş kartlarından istifadəni ləngidən digər amil bəzi müəssisələrin işlərini hələ də ikili mühasibat üzərində aparmalarıdır. Ödəniş kartları, eləcə də POS-terminalların tətbiqi onların dövriyyənin qeydiyyata alınmasıdır. Başqa sözlə, o deməkdir ki, iş yerləri və ticarət obyektləri nağd ödənişlərdən imtina edir. Bu isə ikili mühasibatın qarşısını alır, əməliyyatların qeydiyyatını reallaşdırır. Belədə, təbii ki, vergidən yayınma halları da olmur.

Plastik kartlardan istifadənin arzu edilən səviyyədə olmamasının səbəblərindən biri də əhalidə müvafiq vərdişin yoxluğudur. Ümumiyyətlə, vətəndaşların plastik kartlardan, POS-terminallardan istifadəsi, digər amillərlə yanaşı, həm də vərdişlə bağlıdır. Başqa sözlə, plastik kartdan istifadəyə vərdiş etmiş insanın nağd pul gəzdirməyə marağı olmur. Bunun üçün həm də insanlara inam yaradılmalıdır. Müşahidələr göstərir ki, POS-terminaldan alış-veriş edən zaman vətəndaşlar hesablaşmalardan daha çox vəsaitin götürüləcəyindən ehtiyatlanırlar.

POS-terminalların tətbiqində kredit sistemindən istifadə oluna bilər. Bu sistemin quraşdırılması xərc tələb edir. Buna görə də həmin aparatları quraşdırmaq istəyən az imkanlı satış və xidmət obyektlərinə avadanlıq üçün vəsaitin ödənilməsi məqsədilə müəyyən güzəştlər edilməsi (məsələn, xərclərin hissə-hissə ödənilməsi) məqsədəuyğun olardı...

Bankların prosesə fəal şəkildə qoşulması nəticəsində ölkəyə zəruri sayda POS-terminalların gətirilməsi təmin edilmişdir. Hazırda respublikanın bütün ərazisində, xüsusilə Bakı şəhəri və turizm xəritəsinə aid olan mərkəzlərdə fəaliyyət göstərən mehmanxanalarda, ticarət, iaşə, istirahət və əyləncə obyektlərində, taksilərdə, yanacaqdoldurma məntəqələrində, tibb xidməti göstərən, əczaçılıq mallarının satışı ilə məşğul olan müəssisələrdə və digər sahələrdə POS-terminalların quraşdırılması işi, əsasən, yekunlaşdırılmışdır.

Vüqar Bayramovun qənaətincə, nağdsız hesablaşmaların stimullaşdırılması məqsədilə müəyyən dövr üçün bonus sistemlərinin tətbiq edilməsi məqsədəuyğundur. Bu zaman plastik kartlardan istifadə edərək alqı-satqı edənlərin ödədiyi vəsaitin bir qismi (məsələn, 3%-i) sonradan həmin şəxsin hesabına qaytarıla bilər. Bu sistem ötən əsrin 90-cı illərində qardaş Türkiyədə çox uğurla tətbiq edilmişdir. Təbii ki, bu, vətəndaşları nağdsız hesablaşmalardan istifadəyə təşviq edir. Bununla da vətəndaşlarda plastik kartlardan istifadə ənənəsi formalaşır və uzunmüddətli dövr üçün nağdsız hesablaşmalardan istifadə üçün zəmin yaranır.

Elektron ticarətin inkişafı üçün bu sahənin ƏDV-dən azad edilməsi də məqsədəuyğundur. Bu, elektron ticarətin inkişafına yardım göstərməklə yanaşı, «e-ticarət»in leqal olması üçün faydalıdır. Uyğun təcrübə hazırda ABŞ-da tətbiq edilir.

Banklar tərəfindən müştərilərə kredit kartları təqdim edilərkən bu kartların kredit imkanlarının nağd istifadə edilməsini məhdudlaşdırmaqla istifadəçini nağdsız ödənişə təhrik etmək olar. Bundan başqa, bütün ölkə böyü ödənişin bu növünü həyata keçirmək imkanı yaradan texnoloji təchizat vasitələri təmin edilməklə nağd pul daşıma zərurətini aradan qaldırmağa şərait yaranar.

**Vaqif BAYRAMOV,**
***«Xalq qəzeti»***

## Avropa Yenidənqurma və İnkişaf Bankı:

# Azərbaycanda yoxsulluğun səviyyəsi yüksək templə azalır

*Azərbaycanda sosial-iqtisadi tərəqqi fonunda qazanılan nailiyyətlərin miqyasının ildən-ilə genişlənməsi əhalinin bütün təbəqələrinin həyat səviyyəsinin yaxşılaşdırılması ilə bərabər, bu istiqamətdə əlavə tədbirlərin də uğurla reallaşdırılmasına yeni imkanlar açır. Xüsusən də yoxsulluğun səviyyəsinin azaldılması və əhalinin sosial müdafiəsinin gücləndirilməsinə yönəlmiş ardıcıl tədbirləri dünyanın nüfuzlu iqtisadi və maliyyə qurumları da təqdir edirlər.*

Bu günlərdə Bakıda səfərdə olmuş Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) prezidenti Suma Cakrabartinin fikirləri bunu bir daha təsdiqləyir. Azərbaycanda yoxsulluğun səviyyəsinin yüksək templərlə azaldığını deyən AYİB prezidenti bunu son 10 ildə ölkə iqtisadiyyatında əldə olunmuş uğurlu makroiqtisadi göstəricilərlə əlaqələndirir. Azərbaycanda yoxsulluğun səviyyəsinin 2001-ci ildəki 50%-dən 2013-cü ilin birinci yarısında 5,6%-dək azalmasını «bəşəriyyət tarixində nadir nümunələrdən biri» kimi qiymətləndirən Suma Cakrabarti AYİB-in son 20 ildə respublikada inkişafyönümlü layihələrə 1,6 milyard avro məbləğində sərmaye qoyduğunu və qeyri-neft sektorunda iri investorlardan biri olduğunu vurğulayıb: «AYİB Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorundakı iri investorlardan biri kimi fəxr edir ki, ölkədə yoxsulluğun səviyyəsinin azaldılması proseslərində müəyyən rol oynayıb».

Azərbaycanda insan indeksinin inkişafı və yoxsulluğun səviyyəsinin azaldılması sahəsində əldə olunmuş uğurlar digər nüfuzlu maliyyə qurumlarının da hesabatlarında dolğun əksini tapır. Məsələn, Dünya Bankı hesab edir ki, milli gəlirin ədalətli bölgüsünə görə Azərbaycan 110 inkişaf edən ölkəni geridə qoyur və bu da iqtisadi inkişafın səmərəliliyini göstərir. Bankın hesabatına görə, respublikamız dünyanın 153 ölkəsi arasında ən aşağı yoxsulluğa malik 20 ölkədən biridir. Bundan başqa, Azərbaycan insan inkişafı indeksi üzrə 169 ölkə arasında 67-ci yerdə qərarlaşmaqla «yüksək insan inkişafı» ölkələri sırasına daxil olub.

Hazırda yoxsulluq həddinin müəyyənləşdirilməsi üçün dünya təcrübəsində müxtəlif metod və yanaşmalardan istifadə olunur. Məsələn, yoxsulluğun azaldılmasına böyük vəsaitlər xərcləyən və geniş sosial proqramlar həyata keçirən ABŞ-da gəlirlərinin 13%-ni ərzağa xərcləyən ailələr yoxsul hesab edilirlər. Dünyada geniş yayılmış digər yanaşmaya görə, ölkə üzrə orta aylıq əməkhaqqının 60%-dən az gəliri olanlar yoxsul sayılırlar.




**Respublikamız dünyanın 153 ölkəsi arasında ən aşağı yoxsulluğa malik 20 ölkədən biridir**

Dünya Bankının qiymətləndirmələrinə əsasən, hazırda 1,5 milyard insan - dünya əhalisinin təxminən 20%-i, inkişaf etməkdə olan ölkələrin əhalisinin isə 25%-i beynəlxalq səviyyədə qəbul edilmiş yoxsulluq həddində yaşayır. Bankın müəyyənləşdirdiyi digər mühüm meyara görə, Şərqi Avropa və MDB ölkələrində gündəlik gəliri 4 dollardan, inkişaf etmiş ölkələrdə 14,4 dollardan az olanlar yoxsul hesab edilirlər. Bu, yoxsulluğun ölçülməsinin ən geniş yayılmış formalarından biri olan normativ metodla oxşardır. Bu metoda əsasən, minimum ehtiyacların ödənməsi üçün rəsmi təyin olunmuş həddən aşağı gəliri olanlar yoxsul sayılırlar.

Azərbaycanda yoxsulluq həddini xarakterizə edən başlıca göstərici əhalinin minimum istehlak tələbatını (fizioloji minimum və maddi təminat üçün minimum büdcə) ödəmək üçün gəlirin məbləği hesab olunur. Başqa sözlə, yaşayış minimumunun dəyəri yoxsulluq həddi kimi qəbul edilir və 2013-cü il üçün bu hədd 116 manat (147 ABŞ dolları) civarında müəyyənləşdirilib.

Azərbaycanda yoxsulluqla mübarizə sahəsində mühüm layihələrdən biri də aztəminatlı vətəndaşlara ünvanlı sosial yardımları (ÜSY) nəzərdə tutan xüsusi dövlət proqramının həyata keçirilməsidir. Hazırda təxminən 120 minə yaxın ailə (600 minə yaxın vətəndaş) dövlətin yaratdığı bu imkandan bəhrələnir. Həmin ailələrin 60%-nin sosial proqramlar çərçivəsində dövlətdən heç bir yardım almaması yeni sistemin səmərəliliyini təsdiqləyir. Ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədi ilə ehtiyac meyarı da mərhələlərlə ölkə üzrə yaşayış minimumuna çatdırılır. Məsələn, ehtiyac meyarının həddi 2011-ci ildə 75 manat, 2012-ci ildə 84 manat idisə, 2013-cü ildə 93 manat təşkil edir. Bununla yanaşı, 2004-2012-ci illərdə minimum əməkhaqqının məbləği 18 dəfə artıb.

2013-cü ilin birinci yarısında Azərbaycanda orta aylıq pensiya məbləği ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,8% artaraq 152,9 manata çatıb və orta aylıq əməkhaqqının 37,8%-nə bərabər olub. Respublikamız insan inkişafı meyarlarının Avropa Sosial Xartiyasının tələblərinə çatdırılması istiqamətində də fəal iş aparır. Yaşayış minimumunun 2014-cü ildə 138, 2015-ci ildə 146 manatadək artırılacağı proqnozlaşdırılır. Ehtiyac meyarının həddinin 2014-cü ildə 107 manat, 2015-ci ildə 114 manat təşkil edəcəyi gözlənilir. Nəhayət, minimum əməkhaqqının 2014-cü ildə 127,7 manata, 2015-ci ildə 140 manata çatdırılması qarşıya məqsəd qoyulub.

2013-cü ilin dövlət büdcəsi də əhalinin sosial rifahının gücləndirilməsi və yoxsulluğun səviyyəsinin azaldılması istiqamətində bir sıra tədbirləri uğurla reallaşdırmağa imkan yaradır. Qarşıdakı aylarda dövlət büdcəsindən maliyyələşən və maliyyə yardımı alan elm, elmi tədqiqat, təhsil, səhiyyə, sosial təminat, kənd təsərrüfatı, hüquq-mühafizə orqanlarında çalışan dövlət qulluqçularının aylıq əməkhaqları, habelə pensiyaların orta hesabla 10-20% artırılması nəzərdə tutulur.

**S.MUSTAFAYEV**

# Əhalinin sayı artır, gəlirləri yüksəlir

*Azərbaycanda əhalinin sayının ötən il 121,4 min nəfər artması o deməkdir ki, təkcə bir ildə ölkədə bir rayonun sakinləri qədər insan artımı baş verib. Bu göstərici əhalinin ümumi sayına nisbətən 1,3% artım deməkdir.*

2013-cü ildə Azərbaycanda əhali artımının 135 min nəfər olacağı proqnozlaşdırılır. Dövlət Statistika Komitəsindən verilən məlumatlara görə, Azərbaycanda əhalinin sayı ilin əvvəlindən 55,3 min nəfər artaraq 2013-cü il iyul ayının 1-i vəziyyətinə 9 mln. 411,8 min nəfərə çatmışdır. Əhalinin sıxlığı bir kvadratkilometrə 109 nəfər olmuşdur. Əhalinin 53,1%-i şəhər, 46,9%-i kənd yerlərində yaşayır və 49,7%-i kişilərdə, 50,3%-i qadınlardan ibarətdir. Əhalinin 22,3%-i 0-14 yaşda, 71,9%-i 15-64 yaşda, 5,8%-i isə 65 və yuxarı yaşda olanlardır. Hazırda ölkədə qadınların sayı kişilərin sayından çoxdur: nisbət 1013:1000 təşkil edir. Bu ilin birinci yarısında ölkədə 83,1 min, yaxud hər gün orta hesabla 459 körpə doğulmuş, əhalinin hər 1000 nəfəri hesabı ilə doğum səviyyəsi 18,1 olmuşdur. Doğulanların 53,6%-i oğlanlar, 46,4%-i qızlardır. Körpələrin 876-sı əkiz, 15-i isə üçəm doğulmuşdur. Doğulan körpələr üçün 73,9 yaş, o cümlədən oğlanlar üçün 71,3 yaş, qızlar üçün 76,6 yaş ömür uzunluğu gözlənilir. İlin əvvəlindən ölkədə 28,8 min ölüm halı qeydə alınmış və ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə hesabı ilə ölüm eyni səviyyədə (6,2) qalaraq dəyişməmişdir. Yanvar-iyun aylarında ölkədə 37,9 min nikah və 5,7 min boşanma halı qeydə alınmış və 2012-ci ilin müvafiq dövrünə nisbətən əhalinin hər 1000 nəfəri üzrə nikahların sayı 7,4-dən 8,2-yə qədər artmış, boşanmaların sayı isə dəyişməyərək eyni səviyyədə (1,2) qalmışdır. 2013-cü ilin altı ayı ərzində daimi yaşamaq üçün Azərbaycana 1,1 min nəfər gəlmiş, ölkədən 0,1 min nəfər getmişdir.




Ölkəmizdə əhalinin böyük hissəsi Bakı şəhərində və Abşeron rayonunda cəmlənib. Buna baxmayaraq, xalqımız tarixən əkinçiliklə məşğul olduğu üçün çayların kənarlarında və dağətəyi məhsuldar torpaqlarda məskunlaşanların da sayı çoxdur. Kür və Araz çayları boyunca, eləcə də dağətəyi bölgələrdə (Göyçay, Ağdaş, Ağsu, Balakən, Zaqatala və s.), Talış dağlarının ətəklərində (Lənkəran, Masallı, Astara) əhalinin sıxlığı orta göstəricidən xeyli yüksəkdir.

Azərbaycanda əhalinin sayının artmasına baxmayaraq, iqtisadi inkişaf nəticəsində gəlirləri də çoxalır. Dövlət Statistika Komitəsindən verilən məlumata görə, 2013-cü ilin yanvar-may aylarında əhalinin gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 6,8% artaraq 13 milyard manata çatmış, onun hər nəfərə düşən həcmi orta hesabla 1403,2 manat və ya ayda 280,6 manat təşkil etmişdir. Hər nəfərə düşən gəlirlər 5,4% artaraq istehlak qiymətlərinin bahalaşması 3,7% bəndi üstələmiş və nəticə olaraq əhalinin alıcılıq qabiliyyəti əvvəlki ilin eyni dövrü ilə müqayisədə 3,7% yüksəlmişdir.

Bu dövr ərzində gəlirlərin 69,3%-i son istehlaka, 9,2%-i vergilər, sosial sığorta və üzvlük haqlarının, 1,9%-i kreditlər üzrə faizlərin ödənilməsinə, 19,6%-i isə əmanətlərin və kapitalın artırılmasına yönəldilmişdir. Əhalinin sərəncamında qalan gəlirlər 11,8 milyard manat təşkil edərək əvvəlki ilin eyni dövrünə nisbətən 6,8 faiz artmışdır.

Yeri gəlmişkən, Azərbaycanda son 10 ildə yoxsulluq həddi 8 dəfədən çox azalaraq 49%-dən 5,6 %-ə enmişdir. Bu, dünya üzrə göstəricidən 3-4 dəfə aşağıdır. Qarşıdakı illərdə yoxsulluq həddinin daha 3-4% azaldılması gözlənilir. Hökumətin əsas hədəfi isə insan inkişafı indeksi üzrə ən yüksək göstəricilərə nail olmaqdır.

**Rəşad SADIQOV**

# Azərbaycan Türkiyə iqtisadiyyatına 20 milyard dollar investisiya qoyacaq

*Azərbaycanlı İş Adamları Birliyi (AİB) ölkədəki biznes dairələrinin Türkiyənin iqtisadiyyatında fəaliyyətini artırmaq üçün bir sıra layihələr hazırlayıb. Təşkilatın rəhbəri Seymur Ağayevin sözlərinə görə, layihələr azərbaycanlı iş adamlarının fəaliyyətinin əlaqələndirilməsini, yeni investisiyaların təşviqini nəzərdə tutur. İki qardaş ölkə arasında iqtisadi əməkdaşlığın daha da genişlənməsində yeni imkanlar yaranmasına səbəb olacaq bu layihələr Türkiyə iqtisadiyyatına Azərbaycan sərmayələrinin həcminin çoxalmasına təmin edəcək.*

S.Ağayevin qeyd etdiyinə görə, Azərbaycan şirkətlərinin xarici ölkələrdəki fəaliyyətində qardaş Türkiyənin xüsusi yeri var. Hər iki ölkənin dövlət başçılarının səyləri və siyasi iradəsi nəticəsində münasibətlər strateji əməkdaşlıq səviyyəsinə yüksəlmiş və bu gün tam əminliklə demək olar ki, Azərbaycan-Türkiyə əməkdaşlığı dünyada bir örnəkdir. Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri və Bakı-Tbilisi-Qars dəmir yolu layihələri bu əməkdaşlığın gözəl nümunələridir.

Bu gün ən nəhəng qaz və neft kəmərləri Azərbaycan-Türkiyə tranzit məkanı vasitəsilə dünyaya uzanmaqdadır, bunun hansı siyasi əhəmiyyətə malik olması dünya dövlətlərinə yaxşı məlumdur. Məhz bu amillər hər iki ölkənin dünya iqtisadiyyatına inteqrasiyasında mühüm rol oynayır və qarşılıqlı əməkdaşlığı nəzərdə tutan yeni-yeni layihələr dünya birliyində Azərbaycanın və Türkiyənin nüfuzunun, mövqeyinin güclənməsinə təkan verir. Bu gün hər iki ölkənin iqtisadiyyatı istər dövlət şirkətləri, istərsə də biznes qurumları üçün açıqdır. Son illərdə isə əlaqələrin möhkəmlənərək keyfiyyətcə yeni mərhələyə qədəm qoyması qarşılıqlı əməkdaşlıq tellərinin genişlənməsinə impuls verib.

Ötən il TransAnadolu təbii qaz boru xətti layihəsi (TANAP layihəsi) üzrə imzalanmış sazişlər əməkdaşlığımızın inkişafında yeni mərhələnin başlanğıcıdır.

S. Ağayev bildirib ki, Azərbaycanın iqtisadiyyatı Türkiyə üçün geniş əhatə dairəsinə görə necə açıqdırsa, qardaş ölkənin sərmayə bazarında və iqtisadi strukturlarında respublikamızın investorlarına bir o qədər «yaşıl işıq» yandırılıb. Türkiyənin sərmayə bazarında indi ən iri sərmayəçilərdən biri məhz Azərbaycandır. Respublikamız son bir ildə qardaş ölkəyə yönəltdiyi investisiyaların həcminə görə bir sıra ölkələri qabaqlamaqdadır. Türkiyənin ən nəhəng kimya kompleksi olan «Petkim»in səhmlərinin alınması, «Tekfen» şirkəti ilə səhmlərin alqı-satqısına dair sazişin imzalanması Azərbaycanın Türkiyədə ən böyük potensial investor kimi qüdrətinin artmasının nümunəsidir. Ümumilikdə iki ölkə arasında nəzərdə tutulan uzunmüddətli əməkdaşlıq proqramlarının icrası yaxın gələcəkdə həm Türkiyənin, həm də Azərbaycanın dünya iqtisadiyyatında aparıcı yer tutmasına stimul verir.

Hazırda Türkiyədə çalışan Ukrayna, Moldova, Macarıstan, Rumıniya, Gürcüstan və digər ölkələrin sərmayəçiləri arasında Azərbaycanın rolu xeyli yüksəkdir. Türkiyə sərmayələri əsasında Azərbaycanda 1106 şirkət fəaliyyət göstərir. Qardaş ölkədə çalışan Azərbaycan şirkətlərinin sayı isə 1000-ə yaxındır. Ölkəmizdəki Türkiyə investisiyalarının həcmi təxminən 1,9 mlrd. dollar, SOCAR və digər Azərbaycan şirkətlərinin Türkiyəyə investisiyaları isə təxminən 4,5 mlrd. dollar təşkil edir. 2018-ci ilədək təkcə SOCAR-ın Türkiyədə qoyacağı investisiyaların həcmi 17 mlrd. dollara çatacaq. AİB-in təşviqedici tədbirləri sayəsində yaxın 10 ildə qardaş ölkədə Azərbaycan tərəfindən qoyulan investisiyaların həcminin 3 dəfə artmasına imkan yaranacaq. Ümumilikdə, 2020-ci ilə kimi Azərbaycanın Türkiyədəki investisiyalarının həcmi 20 mlrd. dollardan artıq olacaq.

# 1 manatlıq sikkələr buraxılacaq

*Ölkədə 1 manatlıq əskinasların yerinə eyni nominalda sikkələrin dövriyyəyə buraxılması gözlənilir. Mərkəzi Bankın (AMB) açıqlamasında bildirilir ki, AMB tərəfindən artıq 2003-cü ildən bu məsələ nəzərdən keçirilir, hazırda isə məsələnin həll üsulları araşdırılır.*

1 manatlıq əskinasların yerinə eyni nominalda sikkələrin dövriyyəyə buraxılması məsələsinə isə ictimaiyyət birmənalı yanaşmır. İqtisadçı ekspert Samir Əliyev qəzetimiz üçün verdiyi şərhdə qeyd edib ki, 1 manatlıq sikkələrin dövriyyəyə buraxılması müsbət addım kimi qiymətləndirilməlidir. Dünya təcrübəsində bu cür addımların atılması dəmir pulların ömrünün kağız pullarla müqayisədə dəfələrlə çox olması ilə izah edilir.

Ekspertin fikrincə, ölkə vətəndaşlarında puldan istifadə mədəniyyəti hələ tam formalaşmayıb. Kağız pullar çox vaxt cibdə səliqəsiz şəkildə saxlanılır ki, nəticədə düzgün istifadə olunmayan pullar cırılmağa, əzilməyə və aşınmağa məruz qalır: «Dövriyyədə kifayət qədər «skoçlu» manatlıqlara rast gəlirik. Ona görə də valyutası Azərbaycan manatının məzənnəsinə yaxın olan Avropa Birliyində, Böyük Britaniyada və digər ölkələrdə 1 nominallı pullar sikkə şəklində buraxılır».

Paralel olaraq eyni nominaldan olan kağız və dəmir pulların işləməsi müəyyən çətinliklər yarada bilər. Çünki insanlar kağız pula daha çox üstünlük verirlər və sikkəni cibdə gəzdirmək müəyyən rahatsızlıq yaradır...

S.Əliyevin sözlərinə görə, qəpik pulların yaradacağı əsas problem bankomatlarla bağlı ola bilər. «Çünki bankomatlar ancaq kağız pul üçün nəzərdə tutulub. Bu o deməkdir ki, pensiyaçılar və sosial müavinət alan şəxslər pullarını bankomatdan tam götürə bilməyəcəklər. Ən azı 4 manata qədər pul bankomatda qalacaq. Ancaq bundan çıxış yolu var. Yeni nominallı əskinasları dövriyyəyə buraxmaqla bu problemi aradan qaldırmaq olar. Burada söhbət 2 manatlıq əskinazlardan gedir. Hazırda 1 manatlıq əskinasdan sonra 5 manatlıq əskinaslar gəlir. Bu isə ödəniş zamanı müəyyən problemlər yaradır. Xüsusilə də şəhərarası nəqliyyatda bu problem daha aydın hiss olunur. Dünya təcrübəsində 2 nominallı əskinaslar var. Məsələn, 2 avro, 2 funt və s...»

Xatırladaq ki, hazırda dövriyyədə 1, 5, 10, 20, 50, 100 manatlıq əskinaslar və 1, 3, 5, 10, 20, 50 qəpiklik metal pullar var.

**AYTƏN**

# «ASAN xidmət» mərkəzləri - vətəndaş məmnunluğu

*Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində yaradılan «ASAN xidmət» mərkəzləri bu gün bütün ölkəni əhatə etmək üçün səylərini davam etdirir.*

Hazırda Bakı şəhərinin Nəsimi, Nərimanov və Binəqədi rayonlarının sakinləri üçün 1 saylı, Nizami, Xətai və Suraxanı rayonlarının sakinləri üçün 2 saylı və Sumqayıt «ASAN xidmət» mərkəzləri fəaliyyət göstərir. Yaxın vaxtlarda isə Yasamal rayonunu əhatə edən 3 saylı və Gəncə «ASAN xidmət» mərkəzlərinin açılışı gözlənilir.

«ASAN xidmət» mərkəzlərinin yaradılmasında məqsəd vətəndaşların əlavə xərclərinin və vaxt itkisinin azaldılması, vətəndaşlara münasibətdə etik qaydalara, nəzakətli davranışa əməl edilməsinə nail olunması, peşəkarlıq səviyyəsinin yüksəldilməsi, dövlət strukturlarına etimadın və şəffaflığın artırılması, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, elektron xidmətlərdən daha geniş istifadə olunması, bu sahədə aparılan institusional islahatların səmərəliliyinin artırılmasıdır. «ASAN xidmət» mərkəzlərində notariat fəaliyyəti, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı, məhkumluq barədə arayışların verilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi, ümumvətəndaşlıq pasportlarının verilməsi və dəyişdirilməsi, torpaq kadastrı məlumatları barədə arayışların verilməsi, hüquqi və fiziki şəxslərə arxiv arayışlarının verilməsi, əmək pensiyalarının təyin edilməsi, daşınmaz əmlakla bağlı əməliyyatların qeydiyyatı, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti və daimi yaşamaq üçün icazələrin, habelə haqqı ödənilən əmək fəaliyyətini həyata keçirmələri üçün fərdi icazələrin verilməsi, kommersiya hüquqi şəxslərin və vergi ödəyicilərinin qeydiyyatı üzrə xidmətlər göstərilir. «ASAN xidmət» mərkəzlərinin olmadığı ərazilərdə isə səyyar xidmətlər göstərilir. «Səyyar xidmət»in həyata keçirilməsinin əsas məqsədləri dövlət xidmətlərinin vətəndaşlara daha rahat, yeni və innovativ üsullarla təqdim edilməsi, vətəndaşlar üçün əlçatanlığın təmin edilməsi və vətəndaş məmnunluğuna nail olunmasıdır. «Səyyar xidmət» əsasən avtomobillər və irıtutumlu avtobuslar vasitəsilə həyata keçirilir. İndiyədək Xırdalan, Şirvan, Quba, Qusar, Xaçmaz, Sabirabad, Saatlı, Salyan, Neftçala, Şamaxı və İsmayıllı rayonlarının sakinlərinə səyyar xidmət göstərib.

«ASAN xidmət» mərkəzlərində daha bir yeni xidmət istifadəyə verilib: 1 saylı mərkəzdə ilk dəfə olaraq ölkəmizdə daimi yaşamaq hüququ olan əcnəbi vətəndaşa Asan İmza elektron sertifikatı və SİM-kart təqdim olunub. Bundan sonra Azərbaycanda yaşayan bütün xarici ölkə vətəndaşları elektron hökumətin bərabərhüquqlu iştirakçısına çevrilərək həm Azərbaycanda, həm də onun hüdudlarından kənarda müxtəlif e-xidmətlərdən, o cümlədən kommersiya fəaliyyəti ilə bağlı e-xidmətlərdən istifadə edə biləcəklər.

**AYTƏN**

# Sosial sığorta sistemi özünü doğruldur

*Dövlət Sosial Müdafiə Fondu 1997-ci ilədək sosial sığorta sahəsində fəaliyyətini Azərbaycan Respublikasının müvafiq qərarları ilə həyata keçirib.*

Həmin ilin fevral ayının 18-də qəbul edilmiş «Sosial sığorta haqqında» Azərbaycan Respublikasının Qanunu ilk dəfə olaraq sosial sığortanın fiziki şəxslərin itirilmiş əmək haqlarının, gəlirlərinin və ya əlavə xərclərinin kompensasiya edilməsinə, habelə itirilməsinin qarşısının alınmasına yönəldilmiş təminat forması kimi ortaya çıxdı. Sosial sığortanın məcburi və könüllü dövlət sığortası formaları var.

Sosial sığorta sistemində ölkədə fəaliyyət göstərən mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasının və ya xarici dövlətin qanunvericiliyinə uyğun surətdə yaradılmış hüquqi şəxs statusunda olan müəssisə, idarə və təşkilatlar, onların filial və nümayəndəlikləri, seçkili orqanlar, habelə özünü və ya başqasını sosial sığorta edən digər şəxslər sığortaedənlər hesab olunurlar.

> *2008-ci il yanvarın 1-dən sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin «bir pəncərə» prinsipi tətbiq olunmağa başlamış və bu sahədə vahid dövlət qeydiyyatı orqanı Vergilər Nazirliyi müəyyən edilmişdir*

Dövlət Sosial Müdafiə Fondunun maliyyə-büdcə şöbəsinin müdiri İdris İsayev DSMF-nin saytında sosial sığorta sahəsində görülən işlər barədə fikirlərini bölüşüb. O qeyd edib ki, keçən dövr ərzində sosial sığorta ödəmələrinin tərkibində müəyyən dəyişikliklər edilmiş, sığorta prinsiplərinə əsaslanmayan ödəmələr bu tərkibdən çıxarılmışdır. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məcburi dövlət sosial sığortası və ya könüllü sığorta üzrə fəaliyyəti həyata keçirən və sığorta fondlarını idarə edən hüquqi şəxslərin sığortaçı olmaq hüququ qanunvericiliklə təsbit olunmuş və Azərbaycan Respublikası Prezidentinin «Sosial sığorta haqqında» Qanununun tətbiq edilməsi barədə» müvafiq fərmanı ilə Dövlət Sosial Müdafiə Fondu məcburi dövlət sosial sığortası sahəsində idarəetməni həyata keçirən müvafiq icra hakimiyyəti orqanı kimi müəyyən edilmişdir.

İ.İsayev qeyd etmişdir ki, ölkədə sahibkarlığın inkişafının sürətləndirilməsi, biznes mühitinin əlverişliliyinin daha da artırılması və biznesə başlama prosedurlarının sadələşdirilməsi məqsədi ilə ölkə başçısının müvafiq sərəncamı ilə 2008-ci il yanvarın 1-dən sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin «bir pəncərə» prinsipi tətbiq olunmağa başlamış və bu sahədə vahid dövlət qeydiyyatı orqanı Vergilər Nazirliyi müəyyən edilmişdir. «Sahibkarlıq fəaliyyəti subyektlərinin dövlət qeydiyyatının «bir pəncərə» prinsipinə uyğun təşkili ilə əlaqədar bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələrə uyğun olaraq, «Vergilər Nazirliyi ilə Dövlət Sosial Müdafiə Fondu arasında sahibkarlıq fəaliyyəti subyektlərinin dövlət qeydiyyatı, vergi və sosial sığorta uçotu məlumatlarının mübadiləsinə dair imzalanmış razılaşmaya əsasən «bir pəncərə» prinsipi ilə vahid dövlət qeydiyyatı orqanında qeydiyyatdan keçən sahibkarlıq fəaliyyəti subyektlərinin məcburi dövlət sosial sığortası sistemində uçotuna dair zəruri olan məlumatların Vergilər Nazirliyi tərəfindən toplanılması və elektron formada Dövlət Sosial Müdafiə Fonduna ötürülməsi təmin edilir. Sahibkarlıq fəaliyyəti subyektlərinə bank hesablarının açılması əməliyyatları da avtomatlaşdırılmış qaydada Vergilər Nazirliyi tərəfindən həyata keçirilir və sığortaedənlərin bank hesabları barədə məlumatlar elektron formada Dövlət Sosial Müdafiə Fonduna ötürülür.

Bu tədbir sahibkarlıq fəaliyyəti subyektlərinin biznesə başlama prosedurlarının yaxşılaşdırılması məqsədi ilə dövlət qeydiyyatına alınması və sosial sığorta uçotu məlumatlarının onların iştirakı olmadan mübadiləsi istiqamətində atılmış mühüm addımdır.

İşəgötürən kimi fəaliyyət göstərən sığortaedənlər və işçilər üçün məcburi dövlət sosial sığorta haqqı dərəcəsinin 1992-ci ildə tətbiq olunan 41 faizdən 16 bənd aşağı salınaraq hazırda 25 faizə endirildiyini qeyd edən şöbə müdiri məcburi dövlət sosial sığortası sistemində hazırda 339 mindən çox sığortaedənin uçota alındığını vurğulamışdır. Qeyd etmişdir ki, məcburi dövlət sosial sığorta haqları üzrə Dövlət Sosial Müdafiə Fondunun gəlirlərinin əsas hissəsi işəgötürənlər tərəfindən təmin edilir. Qanunvericiliyə uyğun olaraq, hazırda bütün işəgötürənlər hesablanmış əməyin ödənişi fondunun və məcburi dövlət sosial sığortasına cəlb olunan digər gəlirlərin 22 faizi miqdarında, işçilər isə hesablanmış əməkhaqqının 3 faizi miqdarında məcburi dövlət sosial sığorta haqqı ödəyirlər.

Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdən daxilolmaların keçən dövr ərzində əhəmiyyətli dərəcədə artdığını vurğulayan şöbə müdiri qeyd etmişdir ki, bu kateqoriyadan olan şəxslərdən 2004-cü ildə 2,1 milyon manat məbləğində məcburi dövlət sosial sığorta haqqı toplanırdısa, 2012-ci ildə bu göstərici 38,1 milyon manata yaxın olmuşdur. Son 8 il ərzində bu daxilolmalar 18,1 dəfə artmışdır.

**A.NƏBİYEVA**

## vergi təqvimi

| İYUL | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | **7** |
| 8 | 9 | 10 | 11 | 12 | 13 | **14** |
| **15** | 16 | 17 | 18 | 19 | 20 | **21** |
| **22** | 23 | 24 | 25 | 26 | 27 | **28** |
| 29 | 30 | 31 | | | | |

**Qeyd:** Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.

**Ödənilən vergi:**

15 iyul - «(1)» və «(2)».
22 iyul - «(1-1)», «3», «4», «8», «9», «10.1», «10.2», «10.3» və «11».

**«(1) və (2)» - Gəlir və mənfəət vergisi:** Gəlir və mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Hüquqi şəxslər və fərdi sahibkarlar rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələri dövlət büdcəsinə ödəməlidirlər. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödəyirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

Vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini öz seçiminə əsasən aşağıda göstərilən iki mümkün metoddan birinə uyğun müəyyənləşdirə bilər.

*Birinci metod:* Hər rüb üçün cari ödəmələrin məbləği əvvəlki vergi ilində hesablanmış verginin 1/4 hissəsi məbləğində müəyyən edilir.

*İkinci metod:* Cari rübdəki gəlirin məbləğini keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyən edilir. Bu zaman vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirməyin yuxarıdakı iki mümkün metodundan birini seçir və hər il aprel ayının 15-dən gec olmayaraq bu barədə vergi orqanına məlumat verir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq etdiyi metod barədə məlumat vermədiyi halda, vergi orqanı birinci metodu tətbiq edir.

Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün ikinci metodu seçdiyi halda, hər rüb başa çatdıqdan sonra 15 gün ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir, əks halda, vergi orqanı birinci metodu tətbiq edir.

Əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilində fəaliyyət göstərən, habelə yeni yaradılmış və fəaliyyət göstərən vergi ödəyiciləri mənfəət və ya gəlir vergisi üzrə cari vergi ödəmələrini təqvim ili ərzində rüblər üzrə artan yekunla hesablamalı, cari vergi ödəmələrinin məbləği mənfəətdən və ya gəlirdən verginin məbləğinin 75 faizindən az olmamalı, rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələrini aparmalı və rüb ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir.

**«(1-1)»- Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür. Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir. Xüsusi notariuslar tərəfindən aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) hesablanan gəlir vergisi barədə «Xüsusi notariusun gəlir vergisi bəyannaməsi» hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«8» - Mədən vergisi**: Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verir. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«9» - Sadələşdirilmiş vergi:** Sadələşdirilmiş vergi üzrə hesabat dövrü rübdür. Sadələşdirilmiş verginin ödəyicisi olan şəxs hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq ödənməli olan verginin məbləği haqqında vergi orqanına bəyannamə verir və həmin müddətdə vergini dövlət büdcəsinə ödəyir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür.

Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.

**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür.

Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı, hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür.

Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«11» - Dövlət rüsumu:** Dövlər rüsumu üzrə hesabat dövrü rübdür. Notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək iki bank günü ərzində, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu bir ay ərzində, digər dövlət rüsumları isə tutulduqdan sonra bir bank günü ərzində dövlət büdcəsinə köçürülür.

«Dövlət rüsumu haqqında» Qanunda nəzərdə tutulmuş dövlət rüsumunu tutan şəxslər hesabat rübündən sonrakı ayın 20-dək dövlət rüsumunun tutulması barədə hesabatları vergi orqanına təqdim etməlidirlər.

vergi cinayətləri

# Vergidən yayındı, məhkəmədən yayına bilmədi

«Dambulaq» Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Adıgözəl Pənəliyevin işləri ilk vaxtlarda yaxşı getsə də, sonradan o, öz biznesinin bəlasına düşüb. Əslində, burada biznesin bir günahı yoxdu...

«Dambulaq» MMC-nin rəhbəri bir neçə il müxtəlif şəxslərin mağaza və obyektlərinin təmirindən əməlli-başlı pul qazana bilmişdi, ancaq dövlətin büdcəsinə vergiləri ödəmədiyinə görə qazancı ona qənim oldu. Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin apardığı istintaq əməliyyatları nəticəsində «Dambulaq» Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru A.Pənəliyev məsuliyyətə cəlb edilməli oldu: CM-in 213.1-ci maddəsi ilə təqsirləndirilərək onun barəsində cinayət işi açıldı. Buna əsas səbəb isə 3 saylı Ərazi Vergilər İdarəsində vergi ödəyicisi kimi qeydiyyatda olan «Dambulaq» MMC tərəfindən vergi orqanına təqdim olunmuş bəyannamələrdə cəmiyyətin gəlirləri və xərcləri barədə məlumatların bilə-bilə təhrif olunmasıdır.

Təxminən 2 il davam edən istintaq zamanı müəyyən edilib ki, Laçın rayonunun Dambulaq kəndində anadan olan, hazırda Ağcabədi rayonu, Taxtakörpü qəsəbəsində yaşayan «Dambulaq» MMC-nin rəhbəri A.Pənəliyev 2008-ci ildə vergi orqanına təqdim etdiyi bəyannamələrə gəlirlər və xərclər barədə bilə-bilə təhrif olunmuş məlumatlar daxil etməklə 33.230,95 manat məbləğində vergiləri dövlət büdcəsinə ödəməkdən yayınıb. A.Pənəliyev hüquqi ünvanı Xaçmaz rayonu, Mürsəl Qışlaq kəndi olan, 3 saylı Ərazi Vergilər İdarəsində vergi ödəyicisi kimi qeydiyyata alınmış «Dambulaq» MMC-nin direktoru vəzifəsində işləyərkən vergiləri dövlət büdcəsinə ödəməkdən yayındırmaq məqsədilə sadələşdirilmiş, mənfəət, ƏDV üzrə bəyannamələrinə gəlirlər və xərclər barədə bilə-bilə təhrif olunmuş məlumatlar daxil edib. A.Pənəliyev istintaq orqanları tərəfindən 2012-ci ilin iyul ayında şübhəli şəxs qismində istintaqa cəlb edilərək barəsində başqa yerə getməmək haqqında iltizam qətimkan tədbiri seçilib.

Sahibkar törətdiyi əməlləri etiraf edərək bildirib ki, «Dambulaq» MMC-nin adından Gəncə şəhərində fəaliyyət göstərərkən vergiləri ödəməmək üçün müxtəlif üsullara əl atıb. Müəssisənin mühasibat işlərini birbaşa özü həyata keçirib, sənədləri istədiyi kimi tərtib edib. Müəssisənin adından vergi orqanına bəyannamələri özü təqdim edib və məqsədli şəkildə bəyannamələrə bilə-bilə təhrif edilmiş məlumatlar daxil etməklə 33.230,95 manat məbləğində vergiləri dövlət büdcəsinə ödəməkdən yayındırıb.

Məsələ bundadır ki, «Dambulaq» MMC ilə müqavilə bağlayan müxtəlif şəxslər öz obyektlərinin təmiri zamanı bütün işləri qanun çərçivəsində həyata keçiriblər. İstintaq orqanlarına şahid qismində ifadə verən 20-dən çox sahibkar onlara məxsus mağazaların ön fasad hissəsini alkoponla üzlətmək üçün A.Pənəliyevlə müqavilə bağladıqlarını, görülən iş və xidmətlərin dəyərini nağd qaydada kassa mədaxil orderi əsasında «Dambulaq» MMC-nin rəhbərinə verdiklərini bildiriblər. Fotoşəkillər üzrə tanınma zamanı mağaza sahibləri Adıgözəl Pənəliyevi tanıyıblar.

A.Pənəliyevin cinayət törətməsi faktlarla sübuta yetirildiyindən iş baxılması üçün məhkəməyə verilib...

**ELBRUS**

beynəlxalq panoram

# Yaponiya satışdan verginin dərəcəsinin artırılmasını təxirə sala bilər

*Yaponiya Baş nazirinin müşaviri Koiçi Xamada bildirib ki, satışdan verginin dərəcəsinin artırılması yubadıla bilər, çünki onun rəqibləri tərəfindən bu, ciddi etirazla qarşılanacaq.*

2015-ci ildə Yaponiyada satışdan verginin dərəcəsi 5%-dən 10%-dək artırıla bilər. Biznes təmsilçiləri ilə görüşdə Xamada bildirib: «Mümkündür ki, vergi dərəcəsinin artırılması təxirə salınsın. Fikrimcə, bu, insanların hazırlıqlı olmaları üçün zəruridir».

O əlavə edib ki, son qərarı Baş nazir Sindzo Abe qəbul edəcək. Yaponiyanın dövlət büdcəsinin borcu ümumi daxili məhsulun həcmindən iki dəfə artıq olduğuna görə, milli maliyyə gücləndirilməlidir, özü də buna istehlakın kövrək bərpasını zədələmədən nail olunmalıdır.



Yaponiyanın ədliyyə naziri Sadakazu Taniqaki bundan əvvəl bildirmişdi ki, vergi dərəcəsinin artmasının vaxtının ləngidilməsi barədə söhbətlər təhlükəlidir, çünki «abenomika» - Abenin iqtisadi hədəfləri məhz vergi dərəcəsinin artırılması ehtimalı üzərində qurulub.

Şotlandiya Royal Bankının baş iqtisadçısı Dzyünko Nişioka belə hesab edir ki, bir çox siyasətçilər maliyyə büdcəsinin konsolidasiyasının tərəfdarıdırlar, buna görə də Yaponiyanın maliyyə vəziyyətini yaxşılaşdırmaq üçün Abenin satışdan verginin dərəcəsini yüksəltməkdən başqa seçimi yoxdur.

Gələn ilin aprel ayında satışdan verginin dərəcəsinin 5%-dən 8%-ə, 2015-ci ildə isə 10%-dək artırılması nəzərdə tutulur. İqtisadçılar bu cür dəyişikliklər qüvvəyə minəcəyi təqdirdə, 2014-cü ilin 2-ci rübündə Yaponiya iqtisadiyyatının illik hesabla 4,4% azalacağını proqnozlaşdırırlar. Abe bu ayın əvvəlində bildirmişdi ki, təhlükəsizliyin təminatına çəkilən xərclərin artmasına və dövlətin külli miqdarda borcu olduğuna görə vergi dərəcəsi artırılmalıdır, amma son qərar iqtisadi şəraitlər nəzərə alınmaqla qəbul olunacaq.

# Rusiyada vətəndaşlar nə qədər vergi ödəyirlər?

Belə təsəvvür var ki, Rusiya vətəndaşları dünyada ən az vergi ödəyirlər. Həqiqətən də öz gəlirlərinin 60-80%-i məbləğində vergi ödəyən Avropa ölkələri ilə müqayisədə Rusiyada tətbiq olunan 13% dərəcəsi çox kiçik görünür. Ancaq deyəsən, bu, ilk baxışda belədir. Əslində isə fiziki şəxslərin gəlir vergisindən tutulan 13% aysberqin görünən hissəsidir. Analitiklərin rəyinə görə, əməkhaqqından tutulan rəsmi faizlərdən əlavə, Rusiya vətəndaşı qazandığı pul vəsaitlərinin əhəmiyyətli hissəsini dövlət büdcəsinə ödəyir.

Gəlir vergisindən əlavə, icbari pensiya və icbari səhiyyə sığortası, əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə və doğum ilə bağlı sığorta haqqı kimi dövlət 34% tutur. Bunu da qeyd etmək lazımdır ki, hər iki məbləği vergi agenti kimi işəgötürən ödəsə də, bu, işçinin qazandığı pullardır. Bu o deməkdir ki, vergi yükü olmasaydı, işçinin əməkhaqqı 47% artıq olardı. Formal olaraq sahibkarların dövlət büdcəsinə ödədikləri məbləğlər vətəndaşların qazandıqları vəsaitlərdir. Mağazada alış-veriş edərkən ƏDV-ni, aksiz və gömrük rüsumlarını - sahibkarların malların qiymətlərinə etdikləri əlavələrin hamısını vətəndaşlar ödəyirlər, bununla da onlar öz yüklərini istehlakçılara yükləmiş olurlar.

Tərkibində vergi nisbəti 50%-ə çatır. Başqa sözlə, əhali və mənzil-kommunal xidmətlərin (enerji ehtiyatlarının) digər istifadəçiləri inhisarçıların ödədikləri bütün vergiləri, o cümlədən 18% ƏDV-ni; sığorta ödəmələri şəklində əməkhaqqı fondunun 34%-ni; fiziki şəxslərin gəlir vergisi şəklində əməkhaqqı fondunun 13%-ni; mənfəət vergisi şəklində vergi tutulan gəlirin 20%-ni; su vergisi və istehsalda istifadə edilən əsas vəsaitlərin amortizasiya ayırmaları da daxil olmaqla digər vergiləri kompensasiya edirlər.

Bu hələ son deyil. Vətəndaşlar dövlət rüsumlarını, torpaq və əmlak vergilərini də ödəyirlər. Bununla yanaşı, avtonəqliyyat vasitələrinin sahibləri əhəmiyyətli məbləğdə vergi ödəyirlər. Qeyd etmək lazımdır ki, idxal edilən avtonəqliyyat vasitələrinin qiymətinə gömrük rüsumları və avtonəqliyyat vasitəsinin idxal qiymətinin 40-50%-i məbləğində vergilər əlavə olunur. Belə qəbul edilir ki, bu rüsumlar ancaq xarici avtonəqliyyat vasitələri alan şəxslər tərəfindən ödənilir, amma dolayısı ilə həmin rüsum Rusiya istehsalı olan avtonəqliyyat vasitələrinin də qiymətlərinə daxil olur. Gömrük maneələri qiymətləri qaldırır, bu da öz növbəsində Rusiya istehsalı olan avtomobillərin qiymətlərinin yüksək səviyyədə saxlanılmasını təmin edir. Avtomobil sahibi öz cibindən əmlak vergisini, texniki baxış haqqını, kifayət qədər böyük yol vergisini və mülki məsuliyyətin icbarı sığortasını ödəyir.



Bütün sahibkarların xərclərinə, bir qayda olaraq, faiz dərəcəsi və təbii inhisarçıların mal və xidmətlərinə çəkilən xərclər daxildir. Bütün iqtisadi agentlər təbii inhisarların (məsələn, Rusiya Dəmir Yollarının) mal və xidmətlərindən istifadə edirlər, onlar bu xərclərini malların qiymətlərinə əlavə edirlər. İstehlakçıların ödəməli olduqları əlavə xərclər bu yolla meydana gəlir. Rusiyada olan faiz dərəcəsi sivil ölkələr arasında ən yüksək dərəcələrdəndir, təbii inhisarların tarifləri isə inflyasiyanı aşıq-aşkar üstələyən templərlə artır.

Beləliklə, mənzil-kommunal xidmətlərinin qiymətləri ölkə üzrə ildə 20-25% artır, bu, iqtisadiyyatın öz artım sürətindən dörd dəfə artıqdır. Bu zaman mənzil-kommunal tariflərinin

Bağçalarda, məktəblərdə və xəstəxanalardakı yığımları gizli vergi növlərinə aid etmək olar, çünki bu da bir vergitutma formasıdır, sadəcə, xəzinədarlıq vasitəsilə uzun yolla deyil, sifarişçidən sifarişı yerinə yetirən şəxsə ödənilir. Eyni hal məktəb haqlarını ödəyəndə də baş verir.

Yuxarıda sadalananlar vətəndaşların əməkhaqqından çıxılan 13% vergidən əlavə ödədikləri vergilərin göstəricilərinin tam olmayan siyahısıdır. Mütəxəssislər isə hesab edirlər ki, «gizli vergilər» ölkənin sosial və iqtisadi həyatına mənfi təsir göstərir.

# Böyük Britaniya Avropa Birliyindən çıxa bilər

Maliyyə əməliyyatlarına tətbiq olunması nəzərdə tutulan yeni vergiyə görə, bu ölkə Avropa Birliyindən çıxa bilər. Bu barədə İngiltərənin sabiq maliyyə naziri Naydjel Louson bildirib. Onun proqnozlarına görə, Avropa Birliyində maliyyə əməliyyatlarına yeni verginin tətbiqindən sonra dünyanın maliyyə mərkəzlərindən biri olan London əhəmiyyətli itkilərlə qarşılaşacaq. Əsas problemlər qiymətli kağızların alqı-satqı əməliyyatları ilə bağlı sazişlərlə olacaq. Avropa Birliyi yeni vergidən ildə 35 milyard avroya qədər gəlir əldə etməyi nəzərdə tutur. Britaniyalılar isə hesab edir ki, yeni vergi dünyanın ikinci böyük maliyyə mərkəzi olan Londonun gələcəyinin üstündən xətt çəkəcək.

# Şərab məhsullarına vergi tətbiq ediləcək

Fransa Senatı şərab məhsullarına vergi tətbiq etməyə hazırlaşır. Bir qədər əvvəl tünd spirtli içkilərə, pivə və siqaretlərə aksizlərin dərəcəsi də artırılmışdı. Senatdan bildiriblər ki, yeni vergi nəticəsində hər şüşə şərabın qiyməti cəmi 4 avrosent artacaq.

Dəyişikliyin əsas hədəfi zərərli vərdişlərlə mübarizəni gücləndirməkdir. Lakin ekspertlərin fikrincə, rəsmi Parisi bu addıma heç də ölkə vətəndaşlarına qayğı istəyi deyil, sərt iqtisadi siyasət məcbur edir.

# Dünyada vergilərin yığılmasında yeni qaydalar tətbiq oluna bilər



*İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatı vergi bazasının azalmasının və gəlirlərin vergitutmadan yayındırılmasının qarşısını almaq üçün 1,5-2 il ərzində beynəlxalq vergi qaydaları yaratmağı təklif edir.*

Bu haqda İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatının (İİƏT) baş katibi Anhel Qurria Moskvada maliyyə nazirlərinin və G20 mərkəzi banklarının rəhbərlərinin görüşü çərçivəsində keçirilən mətbuat konfransında bildirib. İİƏT bu görüşdə təqdim etdiyi plan, Qurrianın sözlərinə görə, beynəlxalq vergi sistemini dəyişdirə biləcək. Təşkilatın rəhbəri qeyd edib ki, bu sahədə görülən işlər investisiyalara maneə yaratmayacaq, əksinə, şirkətlər, o cümlədən transmilli şirkətlər üçün böyük hüquqi mühafizə təmin edəcək. Plan müxtəlif ölkələrin vergi sistemlərindəki qanunvericiliklərdə mövcud olan fərqliliklərlə, eləcə də «vergi adaları» ilə mübarizə aparılmasını nəzərdə tutur.

krossvord



**Yuxarıdan aşağı:** 1.Hicri təqviminin 8-ci ayı; 2.Respublikamızda dağ; 3.İtaliyanın şimalında göl; 4.ABŞ-da şəhər; 5.Təkərin dövriyyəsini ölçən cihaz; 6.Teatr, sirk və digər tamaşalarda fasilə; 9.Azərbaycanda Teymurlu sülaləsindən sonra işlənməyə başlanan titul. Sonralar savadlı adamlara deyilmişdir; 11.Azərbaycan dilində qarşılaşdırma bağlayıcısı; 13.Avropa mənşəli qadın adı; 14.Avtomobil markası; 15.Hind-Çin yarımadasında Cənub-Şərqi Asiyada yerləşən dövlət; 17.İslamda 5 ulul-əzm peyğəmbərdən biri; 18.1837-ci ildə Aleksandr Puşkini dueldə ağır yaralaması ilə məşhurlaşmış fransız zabit, diplomat və senator; 21.Alman rəssamı, qravür ustası və incəsənət nəzəriyyəçisi, alman intibahının görkəmli nümayəndəsi (1471-1528); 22.Yazıda istifadə olunan orfoqrafik işarə; 23.Gürcüstanda şəhər və liman.

**Soldan sağa:** 1.Göbələk növü; 5.Azlitrajlı Rusiya avtomobili; 7.Kiçik əşyaların daşınması üçün nəzərdə tutulmuş, dəri və ya parçadan hazırlanan kişi əl çantası; 8.Biskvit məhsulu; 10.Ukraynanın futbol klubu; 12.Ağciyər xəstəliyi; 14.Hicri təqviminin 10-cu ayı; 16.Mineral; 19.Laosun paytaxtı; 20.Şumer mifologiyasında şimşək, yağış və külək tanrısı; 24.Fransanın şimal-qərbində çay; 25.Xalqı öyrənən, təsvir edən, onun adət-ənənələri, istək və arzularına daha çox bələd olan mütəxəssis; 26.Təbiət,cəmiyyət və insan təfəkkürü haqqında obyektiv, sistemli və əsaslandırılmış biliklərin əldə edilməsinə, dəqiqləşdirilməsinə və yayılmasına yönəlmiş insan fəaliyyət növü; 27.Kitab simvolikası.

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Vyana; 2.Titan; 3.Raqu; 4.Oraban; 5.Korella; 6.Ramazan; 9.Diler; 11.Yak; 13.Sezar; 14.Sinatra *(Frenk)*; 15.Aerobus; 17.NDS; 18.Qafqaz; 21.Rodeo; 22.Katla; 23.Male. **Soldan sağa:** 1.Vaterpol; 5.Kür; 7.Avtoqraf; 8.Krım; 10.Ayna. 12.Radioliz; 14.Skaner; 16.Sezann *(Pol)*; 19.Nardaran; 20.Orsk; 24.Tabu; 25.Uqrandit; 26.ANS; 27.Dezdemona.

Vergilər Nazirliyinin kollektivi
11 saylı Ərazi Vergilər Departamentinin əməkdaşı
**Elşən Mustafayevin**
vəfatından kədərləndiyini bildirir və
mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Vergilər Nazirliyinin kollektivi
12 saylı Ərazi Vergilər Departamentinin əməkdaşı
**Nizam Abdullayevin**
vəfatından kədərləndiyini bildirir və
mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

## idman

# Azərbaycan idmançıları Avropa birinciliyinin qalibi oldular

*Qusar Olimpiya İdman Kompleksində universal döyüş üzrə Avropa birinciliyi başa çatıb. Gənclər və İdman Nazirliyi və Azərbaycan Universal Döyüş Federasiyasının birgə təşkilatçılığı ilə keçirilən yarışda 25 ölkədən 450-dək idmançı qüvvəsini sınayıb.*

Azərbaycan bu mötəbər yarışda 2 komanda ilə təmsil olunub.

Yığmamız layt versiyası üzrə keçirilən yarışlarda 14-15 yaşlı idmançılar arasında 5 qızıl medal qazanıb. Bu yaş qrupu üzrə idmançılarımız daha 2 gümüş, 3 bürünc medal əldə ediblər. 16-17 yaşlı idmançıların yarışında millimiz 4 qızıl, 3 gümüş, 2 bürünc medala sahib olub. Qızlardan ibarət komandamızın üzvləri isə 2 qızıl medal qazanıblar.

Klassik versiya üzrə yarışlarda da təmsilçilərimizin çıxışı uğurlu alınıb. 14-15 yaşlı gənclər arasında idmançılarımız 5 qızıl, 3 gümüş, 3 bürünc medal əldə ediblər. 16-17 yaşlı idmançıların yarışında isə təmsilçilərimiz 3 qızıl, 4 gümüş, 3 bürünc medal qazanıblar.

Hər iki versiya üzrə yarışlarda Azərbaycan yığması ümumi hesabda birinci olub. Rusiya komandası ikinci, Ukrayna millisi isə üçüncü pillədə qərarlaşıb.



# Velosipedçimizin beynəlxalq turnirdə uğurlu çıxışı

*Çin Xalq Respublikasında keçirilən «Tour of Qinghai Lake 2013» beynəlxalq velosiped yarışına yekun vurulmuşdur.*

Lanjou şəhərində keçirilmiş sonuncu dairəvi velosiped yarışı 96 km məsafəni əhatə edirdi. Azərbaycanı bu mötəbər yarışda təmsil edən «Synergy Baku Cycling Project» komandası sonuncu mərhələdə uğurla çıxış etmişdir. Komandamızın velosipedçisi Riko Rogers finişə 2-ci gəlmişdir. R.Rogers 96 km məsafəni sonuncu mərhələnin qalibi kimi 1 saat 56 dəqiqə 45 saniyəyə qət etmişdir. 13-cü mərhələnin qalibi isə ABŞ-ın «UnitedHealthcare Presented by Maxxis» komandasının velosipedçisi Jakob Keoq olmuşdur. 3-cü yerə «Vini Fantini» komandasının idmançısı Françesko Çiki sahib olmuşdur.




# Bakıda güləş məşqçiləri üçün seminar keçirilib

Güləş idman növünün qaydalarına edilən əlavə və dəyişikliklər barədə məşqçi müəllimləri müfəssəl məlumatlandırmaq məqsədi ilə Azərbaycan Güləş Federasiyası (AGF) Hakimlər Kollegiyası tərəfindən həm paytaxtda, həm də bölgələrdə mütəmadi olaraq seminarlar təşkil olunur.

Növbəti belə seminar iyulun 19-da Olimpiya Güləş Mərkəzində Bakı və Bakıətrafı rayonlarla yanaşı, Naxçıvanda fəaliyyət göstərən sərbəst və yunan-Roma güləşi üzrə məşqçi-müəllimlərin iştirakı ilə keçirilib.

Seminarı giriş sözü ilə açan AGF-nin baş katibi, Olimpiya dərəcəli hakim Əjdər Cəfərov hazırlıqların yeni qaydalara uyğun aparılmasının və güləşçilərin daim qaydalara riayət etməsinin vacibliyini bildirib.

Qeyd olunub ki, təkcə fiziki cəhətdən güclü olmaq azdır, həmçinin taktiki bilikləri də artırmaq, eyni zamanda qaydalara riayət etmək lazımdır. Seminar zamanı məşqçi-müəllimlərə yeni qaydalar barədə məlumat verilib, son keçirilən yarışlardan videogörüntülər izlənilib, mübahisəli məqamlar üzərində müzakirələr aparılıb. Daha sonra seminar iştirakçılarını maraqlandıran suallar AGF Hakimlər Kollegiyasının üzvləri tərəfindən cavablandırılıb.

## mozaika

# Ana sevgisi

tam ciddi

Bu ifadə daha çox bədii duyğu yaradır. Lakin ana sevgisi elmin və sosioloqların da diqqətindən kənarda deyil. Alimlərin rəyinə görə, yeni doğulmuş körpələrin normal inkişafı üçün anaları ən azı iki il körpələrindən ayrı olmamalıdırlar. Gün ərzində körpəyə üç saat xüsusi qayğı göstərmək və nəzarət etmək tələb olunur. Bu, körpələr üçün oksigen qədər əhəmiyyətlidir. Uşaq anadan olandan sonra anadan ayrılması, ana ilə uşağın başqa-başqa yerlərdə olması uşaqlarda ruhi cəhətdən müəyyən problemlərin meydana gəlməsinə səbəb olur. Müşahidələrə əsasən, doğumdan sonra müxtəlif səbəblərə görə anadan ayrılan körpələrdə inkişafla bağlı pozğunluqlar yarana bilir: məsələn, boylarının və çəkilərinin artımının yaşıdlarına nisbətən ləngiməsi kimi...



Valideynlərin qərarlı və tarazlaşdırılmış sevgisi uşağın sağlam böyüməsi, şəxsiyyət kimi inkişafı, ətraf mühitə uyğunlaşması baxımından önəmlidir. Bu, həm də uşağın kiçik vaxtlarından müstəqil şəkildə böyüməsinə, sərbəst qərarlar qəbul etməsinə, qarşılaşdığı çətinliklərin öhdəsindən gəlməsinə zəmin hazırlayır. Uşağa sevgi və şəfqət göstərə bilməyən ana uşaq üçün bədbəxtlik hesab olunur. Uşaqda başqalarına maraq, istiqanlılıq, mehribanlıq kimi keyfiyyətlər ana sevgisindən qaynaqlanır.

# Təbii fəlakətin məhsulu

*Qızıl həqiqətən nadir metaldır, özü də təkcə bizim planetdə deyil, bütün Kainatda belədir. Harvard-Smitson Astrofizika Mərkəzinin alimlərinin araşdırmaları sayəsində məlum olmuşdur ki, qızıl ulduzların çox nadir hallarda baş verən xüsusi tipli toqquşması nəticəsində yaranmışdır.*

Edo Berger başda olmaqla bir qrup astronomun fikrincə, Kainatdakı bütün qızıl ehtiyatları ölü ulduzların böyük kütləli nüvələrinin toqquşması nəticəsində yaranmışdır. Bu, çox nadir hadisə olsa da, xoşbəxtlikdən alimlər onun uzaq əks-sədasının qamma parıltısını (GRB 130603B) müşahidə edə bilmişlər.

Edo Bergerin fərziyyəsinə görə, Yer kürəsində qızılın az tapılmasının əsas səbəbi onun məhz bizim planetdə deyil, bütün Kainatda az yayılması ilə bağlıdır. Məsələ burasındadır ki, qızıl iri miqyaslı kosmik fəlakətin qaynar mərkəzində yaranır və daha geniş yayılmış karbon, yaxud dəmirdən fərqli olaraq, ulduzun daxilində «adi qaydada» yarana bilməz.

Alimlər Yer kürəsindən 3,9 milyard işıq ili məsafəsində yerləşən uzaq obyektin qamma parıltısını təhlil edərək bu qənaətə gəlmişlər.

Belə güman etməyə əsas vardır ki, həmin toqquşma nəticəsində xeyli miqdarda ağır element, o cümlədən qızıl yaranmışdır. Alimlərin hesablamalarına görə, həmin qızılın miqdarı Ayın kütləsindən təxminən on dəfə çox olmuşdur. Lakin bu, neytron ulduzlar kimi nəhəng obyektlərin toqquşması hadisəsi üçün çox cüzidir.

Astronomlar hesab edirlər ki, kosmosda mövcud olan qızılın hamısı məhz bu cür toqquşmalarda yaranmışdır. Bu, o deməkdir ki, bütün kainatda qızılın miqdarı azdır və «universal möhkəm valyuta» anlayışı bizim düşündüyümüzdən daha geniş məna daşıyır.

# Qum təpələri, yoxsa piramidalar?

elm

*Amerikalı arxeoloq Angela Mikolun Google Earth proqramı vasitəsilə Yer üzərində tapdığı yüksəkliklər elm aləmində müzakirələrə səbəb olub. Ekspertlər bu tapıntıların qum təpələri olduqlarını desələr də, arxeoloq onların Qədim Misirdə inşa edilmiş piramidaların bir qismi olduğu qənaətindədir.*

Mikol sirli təpələrin təhlilini apararkən bir neçə köhnə və nadir xəritələrdə həmin təpələrin həqiqətən də piramidalar kimi qeyd olunduğunu görüb.



İndiyədək dünya elminə naməlum olan strukturlar bir-birindən təxminən 150 kilometr aralıdadır. Komplekslərdən biri Misirin şimalında, Nil çayı sahilindəki Əbu Sidhum şəhərinin 20 kilometrliyində, ikinci təpəlik isə Fəyum vadisindədir.

«Görüntülər özləri hər şeyi deyir. Amma o təpələrin piramida olduqlarını tam əminliklə demək üçün həmin bölgəyə yollanmaq gərəkdir. Düşünürəm ki, üstünü qum örtmüş komplekslər məşhur Giza piramidalarından da hündürdür», - Angela Mikol bildirib.

# Çıraqqala

dəyərlərimiz

Bu qədim abidə Şabran rayonunun təqribən 20-25 kilometrliyində, «Çıraqqaya» adlanan sıldırım qayanın zirvəsində yerləşir.

Alimlərin qənaətincə, Çıraqqala istehkam-qarovulxana məqsədi ilə IV-VI əsrlərdə tikilib, dörd hissədən ibarət Gilgilçay səddinin baş qarovulxanası olub. Bura həm də qala rolunu oynayırmış və təqribən Xəzər dənizindən Babadağın ətəklərinə qədər uzanan səddin üç böyük qalasından biri imiş. İki qala və səddin böyük bir hissəsi zamanın sınaqlarına davam gətirməyərək uçub dağılmış, Çıraqqala isə öz əzəməti, vüqarı ilə hələ də insanları heyran etməkdədir.

Çıraqqalanın adının yaranması da çox maraqlıdır. Qalanın qərar tutduğu sıldırım qaya el arasında «Çıraqqaya» adlanır. Görünür, hələ qala-sədd tikilməmişdən öncə adamlar düşmən gəlişini bu qalanın başında tonqal qalamaqla xəbər verirlərmiş. Sonralar elə bu məqsədlə həmin qayanın başında möhtəşəm qala tikilmiş və onun indi salamat qalan ən uca bürcündə tonqal qalanarmış.



Çıraqqalanın yerləşdiyi möhtəşəm Gilgilçay səddi, bəzi mənbələrə görə, məşhur Çin səddindən sonra dünyada ikinci nəhəng müdafiə istehkamı olub. Uzunluğu 120 km olan səddin divarlarının qalınlığı bəzi yerlərdə 8 metrə çatır. Babadağa qədər sədd divarlarının hündürlüyü 5-7, bəzi halda 7-11 metr, eni isə 30-35 metrə qədərdir. Faktiki olaraq bu sədd şimaldan cənuba keçilməsi mümkün olan bütün keçidləri bağlayırdı. Hər 30-35 metr məsafədə bürc və ya qüllə ucaldılıb. Bürc və divarlar, əsasən, yonulmamış daşlardan tikilib. Bir vaxt Bakı-Rostov şəhərlərarası şose yolunun genişləndirilməsi ilə bağlı bu nadir abidələrin bir qismi dağıdılıb.

Çıraqqala, mərkəzi qala da daxil olmaqla, 17 bürcdən ibarət düzbucaqlı formasında olub və hazırda bu bürclərdən dördü salamatdır. Qala qapısından bir az aralı, ortalıqda tağbənd örtməli ovdan - su anbarı yerləşir. Gözə dəyən saxsı borulardan görünür ki, su bu ovdana yaxınlıqdakı dağlardakı çeşmələrdən çəkilib. Hündürlüyü 120 metr olan sıldırım qayanın üzərində ucalan baş qüllə uzaqdan daha əzəmətli və möhtəşəm görünür. Bu qüllə müşahidə, işarə məqsədilə tikilib. Burada dayanan keşikçilər Dərbənddən Beşbarmaq səddinəcən dəniz sahili boyu, təxminən 100 km-ə qədər bir ərazini nəzarətdə saxlaya biliblər.

Çıraqqalanın baş bürcü çox maraqlı quruluşa malikdir. Bir tərəfdən girdə, o biri tərəfdən düzbucaq şəklində hörülmüş silindrik gövdə başdan-başa üfüqi zolaqlarla bölünüb. Növbə ilə daş və kərpic hörgülü zolaqlar onun monumentallığını daha da artırır. Belə bir fənd eyni zamanda konstruktiv möhkəmlik üçün məqsədəuyğundur. Elə ona görə də sal qaya üstündə yalnız öz ağırlığı hesabına dayanan baş bürcün möhkəm quruluşu üçün qurşaqvari zolaqlardan istifadə edilib. Qurşaqların materialı daşkərpic olmaqla növbə ilə təkrarlanıb. Siluet və textonika effektinə görə baş bürcün həm forma kamilliyinə, həm də miqyas ölçülərinin tənasübü çox mükəmməldir.

Qeyd edək ki, 2003-cü ildən Azərbaycanın tarixi irsinin və Azərbaycan xalqının memarlıq ənənələrinin mühüm nümunələrindən olan Çıraqqala tarixi abidə kompleksi tarix-memarlıq qoruğu elan edilib.

### Müdriklər deyib ki...



***«Ömür mühafizə edilməsi lazım gələn bir əmlak deyil, elə bir qismətdir ki, sən onu başqaları ilə paylaşmalısan».***

**Uliyam Folkner (1897-1962)**